RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 121 (9576) 9 iyun 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri

## Azərbaycanla Misirin mövqeyi bütün beynəlxalq məsələlərdə üst-üstə düşür



İyunun 8-də Misirin paytaxtı Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib. Dövlət başçılarının iştirakı ilə Azərbaycan-Misir sənədlərinin imzalanması mərasimi baş tutub.

Daha sonra Prezident İlham Əliyev və Misir Prezidenti Əbdülfəttah əs-Sisi mətbuata bəyanatlarla çıxış ediblər.

Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib. Prezident İlham Əliyevin iyunun 8-də həmçinin Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyib ilə görüşü olub.

Prezident İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri iyunun 8-də başa çatıb.

→ 2-4

### Prezident İlham ƏLİYEV:

- Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Keçən il biz Prezident əs-Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni bu onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır. Biz razılaşdıq ki, bu siyasi dialoq bundan sonra da davam etdirilsin. Mən Prezident əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət etdim və şadam ki, mənim dəvətim qəbul edilmişdir. Eyni zamanda bildirdim ki, Misirin COP27 sədrliyi və evsahibliyi böyük uğurlarla nəticələndi. Bu münasibətlə həmkarımı təbrik etdim və eyni zamanda Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdim və bizim nümayəndələrimiz daim təmasdadırlar.

### Prezident Əbdülfəttah əs-SİSİ:

- Bu gün Azərbaycan Respublikasının Prezidenti ilə keçirdiyim danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmini qeyd etdik. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsini qərara aldıq ki, iqtisadi-ticari sahədə əlaqələrimiz daha da inkişaf etsin.

## Böyük yolun başlanğıcı



### 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı Azərbaycanı fəlakətlərdən xilas etdi

Hər zaman xalqın yanında olan və insanların arzularının reallaşdırılmasına çalışan Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıdışı xalqın ümidlərini özünə qaytardı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addımlar atıldı. Məhz milli tariximizin bu unudulmaz günündə Ümummilli Lider Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı müstəqil dövlətçiliyimizi parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas etdi.

Ulu Öndər dövlətçiliklə bağlı çıxışlarında həmişə deyirdi: "Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır... Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin". Heydər Əliyev fenomeninin böyüklüyü məhz xalqı qarşısında daim yüksək mənəvi və siyasi məsuliyyət hissi daşıması, ictimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə çalışması ilə xarakterizə olunmuşdur. Böyük şəxsiyyət qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən təkcə daxili inamına, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Bu isə dahi rəhbərə Ümummilli Liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Ulu Öndərin müəyyən etdiyi inkişaf yolu ilə dövlətimizi tarixinin ən qüdrətli dönəminə yetirdi. Tarixin ən güclü Azərbaycanı 1993-cü ilin o təlatümlü iyun günlərində xalqın verdiyi qərarın, etdiyi seçimin nə qədər düzgünlüyünün, Heydər Əliyevə inamının doğrulmasının möhtəşəm tarixi təcəssümüdür.

→ 5

## Xilaskarlıq missiyası

Ulu Öndərin Naxçıvandan Bakıya gəldikdən sonra Gəncəyə səfəri, hərbi-siyasi problemlərin aradan qaldırılması istiqamətində həyata keçirdiyi fəaliyyət müasir tariximizin hər zaman təbliğ olunmalı və ibrət götürülməli səhifəsidir. Çünki məhz Heydər Əliyevin Bakıya gəlişi ilə qardaş qırğınının və vətəndaş qarşıdurmasının qarşısı alındı. Heydər Əliyev öz müdrikliyi ilə növbəti vətəndaş qırğınlarının həyata keçirilməsinə imkan vermədi. Bu mənada Ulu Öndərin Naxçıvandan Bakıya gəlişi Azərbaycanı məhvə aparan proseslərin axarını kökündən dəyişdi və hər kəs rahat nəfəs aldı, xalqımızın sabaha olan inamı yenidən cücərdi.

Heydər Əliyevin Bakıya gəldikdən 6 gün sonra - 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə Ulu Öndərin xilaskarlıq missiyasına olan ümid və inamların göstəricisi idi. Bununla da Heydər Əliyevin liderliyi ilə dövlətçiliyimizə və müstəqilliyimizə qarşı hazırlanmış bütün məkrli planların iflasa uğradılması prosesi başladı və iyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev dühasının xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu.

→ 5

## 21 ölkə sırasında

### Azərbaycan üçüncü dəfə BMT-nin İqtisadi və Sosial Şurasının üzvü seçilib

Ölkəmizin bu şuraya üzv seçilməsi sosial-iqtisadi sahədə qazandığımız nailiyyətlərin dünyada təqdir edilməsinin növbəti təzahürüdür. İndi Azərbaycan mötəbər bir tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsindədir. Bu günlərdə Almaniyanın Bonn şəhərində artıq COP29 sədrliyi və UNFCCC arasında rəsmi məktub mübadiləsinin imzalanma mərasimi də keçirilib. Beləliklə, Azərbaycanın rəsmən COP29-un sədri vəzifəsinin icrasına başlaması ilə yanaşı, BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu bir daha təsdiq edir.

→ 10

## Azərbaycan-Misir münasibətlərində yeni inkişaf dövrü başlayır

### İki ölkə arasında imzalanan sənədlər əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək

Prezident İlham Əliyevin iyunun 7-də Misirə rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verəcək, münasibətlərin inkişafında yeni səhifə açacaq.

Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə Misir Prezidenti Əbdülfəttah Əs-Sisi ilə Prezident İlham Əliyev arasında təkbətək və geniş tərkibdə görüşlər keçirilib. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Qahirədə prezidentlərin iştirakı ilə iki dost ölkə arasında müxtəlif sahələri əhatə edən daha 6 mühüm sənəd imzalanıb. Təbii ki, imzalanan sənədlər ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək.

→ 7

## COP29 tarixə həm də dünyada sülhə, əmin-amanlığa xidmət edən tədbir kimi yazılacaq

COP29 Azərbaycanda həm də turizmin inkisafı üçün geniş imkanlar açacaq. Çünki dünyamız üçün mühüm olan bir tədbirin keçirildiyi günlərdə ölkəmizə çoxsaylı xarici qonaqlar gələcək. Həmin günlərdə dünyanın diqqəti Azərbaycana yönələcək. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasında ölkəmizin planetin gələcəyini düşünən məsuliyyətli bir diyar olduğunu bütün dünyaya aydın şəkildə göstərəcək. Ümumilikdə isə, COP29-a evsahibliyi etmək Azərbaycan üçün ekoloji təşəbbüsləri nümayiş etdirmək, eləcə də iqlim dəyişikliyi, davamlılıq və biomüxtəlifliyin qorunması ilə bağlı qlobal müzakirələrə töhfə verəcək. Ən nəhayət, COP29-un Azərbaycanda keçirilməsi həm ölkə, həm də dünya üçün bir çox müsbət nəticələrlə yadda qalacaq. Yadda qalan bu uğurlu nəticələr isə daim ölkəmizə başucalığı gətirəcək. Azərbaycan Prezidenti İlham Əliyevin praqmatik xarici siyasət kursu və uzaqgörən diplomatiyası sayəsində COP29 tarixə həm də dünyada sülhə dəstək baxımından yüksək nəticələrə malik böyük əhəmiyyətli beynəlxalq tədbir kimi yazılacaq.




→ 9

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri

# Azərbaycanla Misirin mövqeyi bütün beynəlxalq məsələlərdə üst-üstə düşür

## Qahirədə rəsmi qarşılanma mərasimi







**İyunun 8-də Misirin paytaxtı Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısının şərəfinə toplardan yaylım atəşi açıldı.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Respublikasının və Misir Ərəb Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və Misir prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Misir nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Prezident Əbdülfəttah əs-Sisiyə təqdim olundu. Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Prezident İlham Əliyevin Prezident Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olub



İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olub.

## Azərbaycan və Misir prezidentlərinin geniş tərkibdə görüşü keçirilib

**İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə geniş tərkibdə görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Misir arasında ikitərəfli siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirildi, bu xüsusda Qoşulmama Hərəkatında və İslam Əməkdaşlıq Təşkilatında işbirliyi vurğulandı. Misirin COP27-yə, Azərbaycanın isə COP29-a sədrlik etməsi vurğulanaraq, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması qeyd olundu.

BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) vasitəsilə Dünya Şəhərsalma Forumuna Misirin bu il, Azərbaycanın isə 2026-cı ildə evsahibliyi edəcəyi nəzərə alınaraq, bu sahədə də təcrübə mübadiləsinin və birgə əməkdaşlığın önəmi vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında enerji, tikinti, sənaye, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, hökumətlərarası komissiyanın növbəti iclasının Misirdə keçiriləcəyi bildirildi. Azərbaycanın biznes nümayəndə heyətinin Misirə səfər etdiyi və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının hazırda nəzərdən keçirildiyi qeyd olundu.

Həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin imkanlarının artırılması, Misirin Türkiyənin Mersin limanı vasitəsilə bu xətdən istifadə edərək, Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu. "Şimal-Cənub" Nəqliyyat Dəhlizi və bu xüsusda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşma prosesinin Misir tərəfindən dəstəkləndiyi, dörd kəndin danışıqlar yolu ilə Azərbaycana qaytarıldığı, iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində aparılan işlər təqdir olundu.

Misir şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərində iştirak etməkdə maraqlı olduqları vurğulandı.

## Azərbaycan-Misir sənədləri imzalanıb





**İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin iştirakı ilə Azərbaycan-Misir sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Misir Ərəb Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti ilə Misir Ərəb Respublikasının Qahirə Qubernatorluğu arasında dostluq və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Misir Ərəb Respublikasının Elektrik və Bərpaolunan Enerji Nazirliyi arasında elektrik və bərpaolunan enerji sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Misir Ərəb Respublikasının Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında 2024-2025-ci illər üzrə Birgə Fəaliyyət Planı"nı imzaladılar.

Misirin neft və mineral ehtiyatlar naziri Tarek Əhməd Əl Molla və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu"nu imzaladılar.

Misirin beynəlxalq əməkdaşlıq naziri xanım Raniyə Əl Maşat və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında təcrübə mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin rabitə və informasiya texnologiyaları naziri Amr Talaat və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri

# Azərbaycanla Misirin mövqeyi bütün beynəlxalq məsələlərdə üst-üstə düşür

## Azərbaycan və Misir prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi mətbuata bəyanatlarla çıxış ediblər.** AZƏRTAC **xəbər verir ki, əvvəlcə Misir Prezidenti bəyanatla çıxış etdi.**





### Prezident Əbdülfəttah əs-Sisinin bəyanatı

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev.

Zati-alilərinizi və Sizi müşayiət edən nümayəndə heyətinizi qəbul etməkdən xoşbəxtəm. Bu səfəriniz ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə xidmət edir və yol açacaq. Eyni zamanda zati-alinizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməyiniz münasibətilə də ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikasının Prezidenti ilə keçirdiyim danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmini qeyd etdik. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsini qərara aldıq ki, iqtisadi-ticari sahədə əlaqələrimiz daha da inkişaf etsin.

Xanımlar və cənablar, regional məsələlər Azərbaycan Respublikasının Prezidenti zati-aliləri ilə müzakirələr əsnasında diqqət mərkəzində olub. Cənab Prezidentlə müzakirələrdə eyni zamanda Qəzzada fələstinli insanlar üçün humanitar yardımların həcminin artırılması istiqamətində Misirin səylərini müzakirə etdik və 1967-ci il iyunun 4-dən əvvəlki sərhədlər çərçivəsində müstəqil Fələstin Dövlətinin yaradılmasının zəruriliyini vurğuladıq.

Cənab Prezidentə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyimizi bir daha bildirdim. Bu səylər region ölkələrinin və xalqlarının inkişafı üçün böyük töhfə olacaq. Həmçinin cənab Prezidentə bildirdim ki, növbəti mərhələdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının şahidi olacağıq.

Buyurun, cənab Prezident, söz Sizindir.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.





### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, zati-aliləri.

İlk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qədim tarixə malik ölkənizdə olmağımdan çox məmnunam.

Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Keçən il biz Prezident əs-Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni bu onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır. Biz razılaşdıq ki, bu siyasi dialoq bundan sonra da davam etdirilsin. Mən Prezident əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət etdim və şadam ki, mənim dəvətim qəbul edilmişdir. Eyni zamanda bildirdim ki, Misirin COP27 sədrliyi və evsahibliyi böyük uğurlarla nəticələndi. Bu münasibətlə həmkarımı təbrik etdim və eyni zamanda Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdim və bizim nümayəndələrimiz daim təmasdadırlar.

Beynəlxalq məsələlərin müzakirəsi zamanı aydın oldu ki, fikir ayrılığımız yoxdur. Bütün beynəlxalq məsələlərdə bizim fikrimiz üst-üstə düşür. Əslində, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal çalışırıq, o cümlədən BMT, Qoşulmama Hərəkatı, islam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq edirik, İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində birgə səylər göstəririk. Bildiyiniz kimi, Misirin dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişdir. Bu sədrliyin nəticəsində hərəkat daha böyük imkanlara malik olmuşdur.

Fələstin-İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır - müstəqil Fələstin Dövləti qurulmalıdır, Şərqi Qüds onun paytaxtı olmalıdır. Bu gün Qəzzada yaşanan faciə tezliklə dayandırılmalıdır, müharibə dayandırılmalıdır və bütün məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Mən Prezident əs-Sisiyə bildirdim ki, biz Misirin bu istiqamətlərdəki səylərini dəstəkləyirik və Misir tərəfindən irəli sürülmüş təşəbbüslər diqqətə alınmalıdır.

Eyni zamanda biz Cənubi Qafqazdakı prosesləri də müzakirə etdik. Mən bildirdim ki, hazırda Azərbaycan və Ermənistan öz dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olublar. Demək olar ki, 12,7 kilometr dövlət sərhədi razılaşdırıldı. Azərbaycanın Qazax rayonunun otuz ildən çox müddət ərzində işğal altında olmuş dörd kəndi danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmışdır və biz bunu müsbət hal kimi qiymətləndiririk. Eyni zamanda hesab edirəm ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.

Onu da bildirdim ki, Azərbaycan keçən ilin sentyabr ayında öz dövlət suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmişdir. Əlbəttə ki, bu, Ermənistan ilə normallaşdırma yolumuzda önəmli amil olacaqdır. Həmkarımın diqqətinə o da çatdırıldı ki, iki ilə yaxındır Azərbaycan-Ermənistan şərti sərhədində sakitlikdir, heç bir atəşkəs pozuntusu müşahidə edilmir.

İkitərəfli münasibətlərə gəldikdə, ticarət həcminin artırılması, təbii ki, müsbət haldır. Əgər statistik rəqəmlərə baxsaq görərik ki, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Ancaq mütləq rəqəmlər hələ bizi qane etmir və bu gün imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar əminəm ki, bu istiqamətdə də bizə kömək edəcək. Əminəm ki, ilk növbədə energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi sahələrində və digər sahələrdə yaxşı nəticələr əldə etmək mümkün olacaq.

Biz bu gün eyni zamanda yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi apardıq. Həm "Şərq-Qərb", həm "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır.

Birgə hökumətlərarası komissiyanın növbəti iclası ilə bağlı nümayəndə heyətlərinin üzvləri bizə məlumat vermişlər. Komissiyanın sonuncu iclası iki il bundan əvvəl Azərbaycanda keçirilmişdir. Yəqin ki, komissiyanın növbəti iclası bu il keçiriləcək və prezidentlər tərəfindən verilmiş bütün göstərişlər, əminəm, ciddi müzakirə ediləcək və beləliklə, biz əməkdaşlıq istiqamətində növbəti önəmli addım atacağıq.

Hörmətli cənab Prezident, zati-aliləri, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, noyabr ayında Bakıda COP29 çərçivəsində biz Sizinlə yenidən görüşəcəyik.

## Misir Prezidenti Əbdülfəttah əs-Sisinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib

İyunun 8-də Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

**Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri**

# Azərbaycanla Misirin mövqeyi bütün beynəlxalq məsələlərdə üst-üstə düşür

## Prezident İlham Əliyevin Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyib ilə görüşü olub

**İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyib ilə görüşü olub.**





AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Əl-Əzhərdə ikinci dəfə olduğunu xatırlatdı, Misirə rəsmi səfəri çərçivəsində yenidən burada olmağından və Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyib ilə görüşündən məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan-Misir münasibətlərinin çox yaxşı səviyyədə olduğunu, ölkələrimiz arasında tarixi əlaqələrin mövcudluğunu qeyd etdi. Prezident İlham Əliyev bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, ölkəmizin dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirdi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyibi ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti ölkəmizin bu il COP29-a evsahibliyi edəcəyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Əl-Əzhər ilə birlikdə dini liderlərin növbəti görüşünün COP29 çərçivəsində keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini vurğuladı.



Dövlətimizin başçısı Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğal altında qaldığını xatırladaraq işğal dövründə Azərbaycanın islam dininə aid maddi-mədəniyyət abidələrinin, o cümlədən 67 məsciddən 65-nin tamamilə dağıdıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bu münaqişənin həllinin siyasi yolla mümkün olmadığını təəssüf hissi ilə vurğulayaraq, Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini dedi. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, islam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq beş məscidin bərpa olunduğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan islam həmrəyliyinə töhfə verir və bu istiqamətdə qardaş müsəlman ölkələri ilə birlikdə səylərini davam etdirir.

Azərbaycan Prezidenti Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasının və bu çərçivədə Şuşada keçirilən tədbirlərin önəmini vurğuladı. Dövlətimizin başçısı həmçinin vaxtilə Şuşada mövcud olmuş 17 məsciddən 16-sının işğal dövründə tamamilə dağıdıldığını dedi.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl-Tayyib bu ziyarətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi və Misirlə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu bildirdi. COP29-a dəvətə görə təşəkkürünü bildirən Əhməd Məhəmməd Əhməd Əl-Tayyib bu tədbirdə məmnunluqla iştirak edəcəyini dedi.

Əl-Əzhəri Şərifin şeyxi Bakıda dünya dini liderlərinin II Sammitinin keçirildiyini xatırladaraq, Azərbaycanın islam həmrəyliyinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi və COP29 çərçivəsində də dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını qeyd etdi.

O, Əl-Əzhəri Şərifin Azərbaycanda ərəb dilinin tədrisinə öz dəstəyini verməyə hazır olduğunu vurğuladı, Əl-Əzhərdə azərbaycanlı tələbələrin də təhsil aldıqlarını diqqətə çatdırdı.

Ölkəmizdə ərəb dilinin tədrisinə dəstək niyyətinə görə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev tarixən Azərbaycanda ərəb dilinin və islam mədəniyyətinin tədqiqinə və tədrisinə böyük diqqət yetirildiyini vurğuladı, Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasında Şərqşünaslıq İnstitutunun fəaliyyət göstərdiyini qeyd etdi.

❖ ❖ ❖

Sonra xatirə hədiyyələri təqdim olundu.

## Səfər başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri iyunun 8-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Qahirə Beynəlxalq Hava Limanında dövlətimizin başçısını rəsmi şəxslər yola saldılar.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 296 **QƏRAR** Bakı şəhəri, 7 iyun 2024-cü il

### “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü”nün təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"nin 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü" əlavə olunmuş xəritədə və aşağıda göstərilən hüdudlarda təsdiq edilsin:

1. Xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zona (qoruq rejimi) - 15652,53 hektar.
2. Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zona - 26997,87 hektar.
3. Turizm və rekreasiya zonası - 124,82 hektar.
4. Turistlərə və başqalarına xidmət göstərilən zona - 4,40 hektar.
5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonası - 0,23 hektar.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Hərbi Polis İdarəsində təlim kursu keçirilib

**Müdafiə Nazirliyi ilə 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Brunssumda yerləşən Birgə Qüvvələr Komandanlığının mobil təlim qrupu Bakıda Hərbi Polis İdarəsinin şəxsi heyətinin iştirakı ilə kurs keçib.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kurs müddətində mobil təlim qrupunun təlimatçıları dinləyicilərə hərbi polis fəaliyyətinin NATO standartları çərçivəsində təşkili ilə bağlı ətraflı məlumat verib və digər mövzularda brifinqlər təqdim olunub.

Hərbi qulluqçular kurs müddətində sindikatlar üzrə müxtəlif tapşırıqlar icra ediblər.

## Rabatda "Şuşa günləri" maraqlı və yaddaqalan gecə ilə yekunlaşıb

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (ŞŞDQİ) təşkilatçılığı, Azərbaycan Respublikasının Mərakeş Krallığındakı səfirliyi, ICESCO və Dövlət Turizm Agentliyinin dəstəyi ilə iyunun 7-də ICESCO-nun Rabat şəhərindəki baş qərargahında "Şuşa günləri" tədbiri maraqlı və yaddaqalan gecə ilə yekunlaşıb.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov, Dövlət Turizm Agentliyinin Qoruqların İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli, ŞŞDQİ-nin icraçı direktoru Tural Novruzov, xüsusi nümayəndəliyin, qoruğun əməkdaşları, həmçinin müxtəlif ölkələrin Mərakeşdə akkreditə olunmuş səfirləri, ICESCO rəsmiləri, dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın təqdim etdiyi fotolardan ibarət sərgiyə baxış olub. Burada Şuşanın tarixi keçmişini, müharibədən əvvəlki və sonrakı vəziyyətini, bərpa-quruculuq, yenidənqurma işlərini, əsrarəngiz təbiətini özündə əks etdirən müxtəlif fotolar sərgilənib, hər biri haqqında məlumatlar verilib.

Sonra qonaqlara XVIII-XIX əsrlərə aid Qarabağ milli geyimləri nümayiş olunub, onların tarixi haqqında məlumat təqdim edilib.

Tədbirin kulinariya bölümündə qeyd olunub ki, Azərbaycanın milli mətbəxində unikal iqlim şərtləri və formalaşma tarixi ilə təkrarsız məhsulların coğrafiyası olan Qarabağ regionu, xüsusilə mədəniyyət beşiyimiz Şuşanın mətbəxi dünya qastronomiyasında özünəməxsus yer tutur. Şuşa mətbəxinin Mərakeş mətbəxi ilə ortaq tərəflərini tərənnüm edən menyu pip dolması, kabab büryan, firni, boyanalı aş, Qarabağ kətəsi, reyhan şərbətindən ibarət olmaqla hazırlanıb. Eləcə də təndir kimi milli bişirmə alətlərində təqdim olunan menyu Şuşanın qeyri-maddi mədəni irsindən ibarət mədəni proqramın bir hissəsi kimi nümayiş etdirilib. Şuşa mətbəx nümunələrini dadmaq şansı əldə edən qonaqlara həmçinin ölkəmizin turistik qastronomiya marşrutları haqqında da məlumat verilib.

Qarabağımıza, Şuşamıza həsr edilən səyahət konsert proqramı ilə davam edib. Konsertdən əvvəl ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov çıxış edib, "Şuşa günləri"nin önəmindən, 30 il işğal altında qalmış tarixi şəhərin bu gün yenidən dirçəlməsindən, Şuşada keçirilən beynəlxalq səviyyəli tədbirlərin hər birinin əhəmiyyətindən söz açıblar.

Daha sonra söz Azərbaycanın tanınmış incəsənət xadimlərinə verilib. Şuşamıza həsr olunan videoçarxın nümayişindən sonra təqdim olunan konsert proqramında Qarabağı, Şuşanı vəsf edən mahnılar səsləndirilib, Azərbaycan Dövlət Rəqs Ansamblının üzvlərinin ifasında milli rəqslərimiz ifa edilib.






# Böyük yolun başlanğıcı

## 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı Azərbaycanı fəlakətlərdən xilas etdi

**Tarixi xalqlar yaradır. Dövrün axarını müəyyənləşdirənlərsə böyük şəxsiyyətlərdir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin həyatı və fəaliyyəti, siyasi irsi tükənməz xəzinədir. İki əsrin ən qüdrətli tarixi şəxsiyyəti üçün zamanın və taleyin ən böyük mükafatı xalqın ona göstərdiyi etimad, insanların inamı idi. Heydər Əliyev bütün həyatını bu etimadı doğrultmaq üçün yaşadı. Bu inama layiq olmağı ömrünün mənası bildi. Ulu Öndərin siyasi lider, dövlət qurucusu kimi ən böyük uğur sirri də elə bunda idi.**

### Bir istefadan sonra başlanan faciələrimiz

Azərbaycan xalqı ötən əsrin sonlarında güclü təzyiqlərə məruz qaldı, böyük sınaqlardan keçdi. Bu dövrdə dövlət müstəqilliyimizin bərpasına nail olsaq da, belə bir nailiyyət bizə asanlıqla başa gəlmədi. Sıralarımızdan minlərlə qurban verdik. Xalqımız üçün hər cəhətdən böyük itkilərə gətirən, müstəqil dövlətimizi illərlə geri salan işğalla, müharibə vəziyyətilə, sosial-iqtisadi böhranla, çox ağır keşməkeşlərlə üz-üzə qaldıq.

O dövrün reallıqlarına şahidlik edənlər bilirlər ki, ötən əsrin 80-ci illərinin sonlarında keçmiş SSRİ-nin dağılması labüd proses idi. Çünki yol əvvəldən düzgün seçilmədiyindən və zamanın çağırışları nəzərə alınmadığından belə nəhəng imperiyanın çöküşü əvvəl-axır baş verəcəkdi. Faciə onda oldu ki, bu prosesin ən həlledici və qanlı-qadalı mərhələsi məhz Azərbaycanda başlandı və böyük itkilərlə nəticələndi. Əsas səbəbsə həmin təlatümlü anlarda taleyimizin əsl liderin deyil, yaranmış vəziyyəti fürsət bilib meydana çıxan təsadüfi adamların əlində olmasında idi.

Azərbaycan xalqının ötən əsrin 80-ci illərinin sonlarına doğru üzləşdiyi böyük faciələr məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən kənarlaşdırılmasından sonra başlandı. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttin yanlış olduğunu, keçmiş ittifaqda bir araya gəlmiş xalqları və dövlətləri necə böyük faciələrə doğru apardığını müdrikliklə görürdü və özünəməxsus qətiyyətlə buna etirazını bildirirdi. Bu isə Ümummilli Liderin bədxahlarında qəzəb yaradır, ona qarşı məkrli planlar qurulurdu. Nəhayət, Ulu Öndər keçmiş imperiya rəhbərliyinə etiraz olaraq 1987-ci ilin oktyabrında tutduğu vəzifələrdən istefa verdi. Bununla da Azərbaycana qarşı mənfur planların icrasına başlamaq üçün onillərlə əlverişli fürsət gözləyən, yalnız Heydər Əliyev şəxsiyyətinin gücündən çəkinərək real addımlar atmağa ehtiyat edən ermənilər hərəkətə keçdilər. Ümummilli Liderin istefasından cəmi iki həftə sonra sovet iqtidarındakı himayədarlarının dəstəyi ilə o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırıldı. Bununla da xalqımızın faciəli günləri başlandı.

### İyun hadisələri - xaos, başıpozuqluq, hakimiyyətsizlik

1991-1993-cü illərin böhranlı günləri, ölkədə ictimai xaosun, siyasi hakimiyyətsizliyin geniş miqyas alması cəmiyyətin ümumi təhlükəsizliyini və dövlətin gələcəyini sual altında qoyurdu. Tez-tez baş verən hakimiyyət dəyişiklikləri, siyasi qarşıdurmalar, qeyri-qanuni silahlı dəstələrin mövcudluğu vəziyyəti getdikcə gərginləşdirirdi. Dövlət sükanının xalqın milli maraqlarına zidd siyasət yürüdən və idarəçilikdən baş çıxarmayan qüvvələrin əlində olması ölkəni ağır fəlakətlərə sürükləyirdi. Azərbaycan vətəndaş qarşıdurmasının bir addımlığında idi. Ölkədə hansısa xarici qüvvələrin təhriki ilə separatçı meyillər baş qaldırırdı, yeni münaqişə ocaqlarının təməli qoyulurdu.

1993-cü ilin iyununda baş verən hadisələr Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu, gələcək taleyini təhlükə altına alırdı. Azərbaycan ən həlledici anlarını yaşayırdı. Düşmənlə ölüm-dirim savaşının gərgin çağlarında, Şuşanın, Laçının itirildiyi vaxtlarda hərbçiləri, zirehli texnikanı, silah-sursatı cəbhə bölgəsindən geri çəkib Bakıya gətirən və hakimiyyəti hərbi qiyam yolu ilə ələ keçirən AXC-Müsavat iqtidarının ölkəyə rəhbərliyindən cəmi bircə il ötmüşdü. Amma ictimai-siyasi proseslərin respublikanı böhran vəziyyətinə çatdırması, parçalanmaya, vətəndaş müharibəsi təhlükəsinə, müstəqilliyin itirilməsinə gətirib çıxarması üçün elə bu bircə il də kifayət etmişdi.

Vaxtilə Azərbaycana qarşı işğal cəhdlərinin qarşısını almaq üçün xalqın birliyinin təcəssümü kimi meydana gələn, vətənpərvər ziyalıların dəstəyini qazanan Azərbaycan Xalq Cəbhəsi artıq öz məqsədlərindən xeyli uzaq düşmüşdü. AXC vəzifə uğrunda didişmələrin əsas mərkəzinə çevrilmişdi. Bu təşkilata üzv olmaq kifayət edirdi ki, müəyyən bir kürsüyə sahib olasan. Ölkənin siyasi hadisələr burulğanından təsadüfi olaraq hakimiyyətə gəlmiş ovaxtkı rəhbərlik unudurdu ki, hakimiyyətin mənbəyi xalqdır və dövlət institutlarının formalaşdırılmasında, idarə olunmasında yalnız fərdlərin maraqlarının nəzərə alınması, məsələlərin hüquq normalarından daha çox şəxsi münasibətlər zəminində formalaşdırılması dövlət üçün böyük fəlakətlərə gətirə bilərdi.

AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu o bir ildə ölkə parlamentinin iclaslarında, tribunada, ali toplantılarda tez-tez sözləri çəpləşib əlbəyaxaya çıxan, televiziyanın canlı efirinə müdaxilə edən, proqramın qonaqlarını təhqirlərə məruz qoyan, milyonlarla tamaşaçıya hörmətsizlik edən, jurnalistləri yazdıqları sözə görə döyüb alçaldan və başqa belə əməlləri ilə indi də yaddaşımızda olan hakimiyyət təmsilçiləri demokratiya adı altında qaydalara zidd, çirkin ənənələr formalaşdırırdılar. Kriminal ünsürlər isə ölkənin hər yerində at oynadırdılar. Hər siyasi təşkilatın özünün ayrıca qeyri-qanuni silahlı dəstələri vardı. Qətllər, o cümlədən sifarişli qətllər az qala gündəlik həyat hadisələrinə çevrilmişdi. Heç kimin həyatı təminat altında deyildi. Tez-tez küçələrdə, qələbəlik yerlərdə atışmalar baş verir, əhali təhdid altında qalırdı.

Paytaxt Bakıda isə hakimiyyət uğrunda didişmələr səngimirdi. Bu didişmələr, dava-dalaşlar, həm də düşünülməmiş qərarlar cəbhədə yüzlərlə Azərbaycan igidinin qanı bahasına başa gəlirdi.

Ordu quruculuğu işi, demək olar ki, kiminsə yadına düşmürdü. Nizami ordu yaradılmamışdı. Həlledici hərbi əməliyyat planları peşəkar hərbçilər tərəfindən işlənib hazırlanmırdı və çox zaman da ağır itkilərlə tamamlanırdı. Cəbhə bölgəsindəki hərbi birləşmələr arasında koordinasiya, vahid komanda ruhu yox idi. Onlar bir-birinə lazımi dəstəyi vermir, güvənmir, bəzənsə bu qrupların rəhbərlərinin şəxsi prinsiplərinə görə həlledici anlarda qarşılıqlı təxribatlara belə gedirdilər.

Fərarilik halları da çox geniş miqyas almışdı. Müvafiq inzibati orqanlar buna qarşı heç bir tədbir görmürdü. Ölkə üçün hərbi cəhətdən həlledici bir dövrdə müdafiə nazirləri bir-birini əvəz edirdi.

### Sosial-iqtisadi vəziyyət ağır durumda idi

Ölkə böhran məngənəsində idi. Sosial-iqtisadi vəziyyət hətta böhran həddinə çatmışdı. Bu sahəyə də təcrübəsiz, səriştəsiz insanlar rəhbərlik edirdilər. Onlar çaşqınlıq içində xaotik addımlar atır, sistemsiz qərarlar verir, uğursuz eksperimentlər aparır və bütün bunlar isə əks nəticə yaradırdı. Xalqın həyat şəraiti xeyli aşağı düşmüşdü. Küçə-meydan eyforiyası ilə yaşayanlar özlərini xalqın gözündən tamam salmış, sosial dayaqdan məhrum olmuşdular. Ona görə də 1993-cü ilin əvvəllərindən hakimiyyət böhranının dərinləşməsi gözlənilən idi. İqtidarın böyük yanlışları nəticəsində fəallaşan daxili dağıdıcı və xarici qızışdırıcı qüvvələrin fəal əməkdaşlığı nəticəsində Azərbaycanın parçalanmasına zəmin yaranmışdı. Hakimiyyətin yanlış şəkildə apardığı siyasət, tarixən çoxmillətli ölkə olan Azərbaycanda insanlar arasında milli ayrı-seçkiliyin qoyulması etnik separatizm və vətəndaş müharibəsi təhlükəsini daha da gücləndirirdi.

1993-cü ilin aprelində Kəlbəcərin işğalı ölkədə vəziyyəti daha da dramatikləşdirdi. Ardınca isə Gəncə hadisələri baş verdi. Ölkənin ovaxtkı rəhbərinin milli qəhrəman adı ilə təltif etdiyi, Birinci Qarabağ müharibəsinin ən gərgin vaxtlarında cəbhə bölgəsində xüsusi nümayəndə təyin etdiyi Surət Hüseynov az sonra hakimiyyətdəki müxtəlif şəxslərin onu zərərsizləşdirmək üçün qurduqları planlara, həyata keçirdikləri təxribatçı addımlara cavab olaraq AXC-Müsavat hakimiyyətinə qarşı çıxdı. AXC-Müsavat başbilənləri bir neçə gün içində qəhrəmana çevirdikləri bu şəxsi indi də xəyanətkar kimi təqdim etməyə başladılar. Gəncədə qardaş qanı töküldü. Azərbaycanın müstəqilliyini gözü götürməyən, inkişafımızı əngəlləmək istəyən xarici qüvvələr də bu məqamı fürsət bilib müxtəlif müdaxilələrlə vəziyyəti qızışdırmağa başladılar. O cümlədən işğalçı Ermənistan yaranmış vəziyyətdən istifadə edərək torpaqlarımızı ələ keçirirdi. Cəbhə bölgəsindəki hərbi birləşmələrin mühüm hissəsi geri çəkildiyindən rayonlarımız işğal olunmağa başladı.

Müstəqilliyini yenicə qazanmış ölkənin bu ağır bəlanı adlayacağı çox çətin görünürdü. AXC-Müsavat hakimiyyəti yaranmış vəziyyətin həlli yolunu düzəltmək iqtidarında deyildi. Onlar ən təhlükəli fikirlər ortaya atır, müxtəlif fərziyyələr irəli sürürdülər. Fakt bu idi ki, hakimiyyətin yarıtmaz və xəyanətkar siyasəti ölkəni dünyanın siyasi xəritəsindən silinmək təhlükəsinin bir addımlığına gətirmişdi.

### Xalq Ulu Öndərin Naxçıvandan Bakıya gəlməsini israrla tələb edirdi

Belə bir ağır vaxtda xalqın böyük əksəriyyətinin, Azərbaycanın gələcəyinə görə məsuliyyət hissi duyan milyonlarla insanın nəzərləri Naxçıvanda idi. Hamı Azərbaycan dövlətini və xalqını bu vəziyyətdən çıxara biləcək qüdrətli xilaskar gözündə məhz Heydər Əliyevi görürdü. Bu böyük dövlət adamının zəngin təcrübəsinə, qətiyyətinə, əzminə güvənirdi. Ümummilli Lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət Heyəti ilə birgə 7 iyun 1993-cü il tarixli iclasındakı çıxışı Gəncə hadisələrinə düzgün tarixi qiymət oldu. Ulu Öndərin xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda siyasi hakimiyyətə qayıdışı, vəziyyəti yerində öyrənmək üçün Gəncəyə səfəri proseslərin daha gərgin məcrada inkişafının qarşısını aldı.

Heydər Əliyevin fədakarlıqla gördüyü işlər vəziyyəti müsbətə doğru dəyişdi. Həmin günlərin ağır reallıqları şəraitində müəyyən kompromislər tapmaq mümkün oldu. Ulu Öndər Heydər Əliyev o dövrün Azərbaycanı haqqında danışarkən deyirdi: "Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Ali Sovetin 1993-cü il iyunun 15-də keçirilən sessiyası parlamentin ən gərgin müzakirələr gedən, vaxt etibarilə ən uzun çəkən iclası oldu. Xalqın iradəsini ifadə edən deputatlar böyük səs çoxluğu ilə Ümummilli Lider Heydər Əliyevi Ali Sovetin Sədri seçdilər. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır" deyən Ulu Öndər problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Heydər Əliyev ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində ciddi islahatlar apardı. Böyük rəhbərin səyləri nəticəsində Azərbaycanda silahlı müxalifətçilik ənənələrinə son qoyuldu, iqtisadiyyatda böyük dəyişikliklər baş verdi, xarici ölkələrlə münasibətlər qarşılıqlı maraqlara xidmət edən praqmatik prinsiplər əsasında tənzimlənməyə başladı.

Hər zaman xalqın yanında olan və insanların arzularının reallaşdırılmasına çalışan Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıdışı xalqın ümidlərini özünə qaytardı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addımlar atıldı. Məhz milli tariximizin bu unudulmaz günündə Ümummilli Lider Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı müstəqil dövlətçiliyimizi parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas etdi.

Ulu Öndər dövlətçiliklə bağlı çıxışlarında həmişə deyirdi: "Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır... Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin". Heydər Əliyev fenomeninin böyüklüyü məhz xalqı qarşısında daim yüksək mənəvi və siyasi məsuliyyət hissi daşıması, ictimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə çalışması ilə xarakterizə olunmuşdur. Böyük şəxsiyyət qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən təkcə daxili inamına, parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almışdır. Bu isə dahi rəhbərə Ümummilli Liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Ulu Öndərin müəyyən etdiyi inkişaf yolu ilə dövlətimizi tarixinin ən qüdrətli dönəminə yetirdi. Tarixin ən güclü Azərbaycanı 1993-cü ilin o təlatümlü iyun günlərində xalqın verdiyi qərarın, etdiyi seçimin nə qədər düzgünlüyünün, Heydər Əliyevə inamının doğrulmasının möhtəşəm tarixi təcəssümüdür.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Xilaskarlıq missiyası

**İşğal olunmuş torpaqlarımızın azad edilməsindən və ərazi bütövlüyümüzün bərpasından sonra tarixinin yeni mərhələsinə qədəm qoyan ölkəmiz hər birimizi qürurlandıran nailiyyətlərini davam etdirir. Bu il aprel ayından başlayaraq Rusiya sülhməramlı kontingentinin ölkəmizi tərk etməsi, daha sonra isə Qazax rayounununun 4 kəndinin işğaldan azad olunması cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin növbəti möhtəşəm uğurlarına çevrildi.**

Dövlətçiliyimizi və müstəqilliyimizi şərəfləndirən, hər bir vətəndaşımıza əvəzolunmaz fəxarət hissi yaşadan bu hadisələr barəsində bəhs edərkən həm də Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə aparan yollara nəzər salırıq. Bir daha görürük ki, respublikamız hansı ağır və gərgin proseslərdən, hansı təlatümlərdən, hansı siyasi-hərbi burulğanlardan keçib gələrək bugünkü qüdrətli səviyyəsinə çatıb. Və müstəqillik tariximizin hər bir şərəf salnaməsi təsdiq edir ki, qələbələrimizin və uğurlarımızın təməlində Heydər Əliyev siyasəti dayanır. Bu baxımdan 31 il əvvəl - dövlətçiliyimizin və müstəqilliyimizin itirilmək təhlükəsi qarşısında qaldığı, Azərbaycanın taleyinin həll olunduğu 1993-cü ilin ağır iyun günlərində görkəmli dövlət xadimi, Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyvin xalqımızın istək və tələbi ilə Bakıya gəlməsi və proseslərə müdaxilə etməsi müasir tariximizin dönüş nöqtəsi olmaqla, milli qurtuluşumuzun başlanğıcı oldu.

O dövrdə Azərbaycanda cərəyan edən proseslər ilk növbədə lider amilinin dövlətin həyatındakı rolunun nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərirdi. Təəssüf ki, müstəqilliyimizin ilk illərində hakimiyyətdə xalqın lider kimi qəbul etmədiyi qaragüruh siyasi qruplar təmsil olunmuşdular. Azərbaycanın üzləşdiyi dərin siyasi və iqtisadi böhranların, yenicə əldə edilmiş müstəqilliyimizin itirilmək təhlükəsi qarşısında qalmasının, bütövlükdə bütün uğursuzluqlarımızın və faciələrimizin əsas səbəbi də məhz idarəçilikdə buraxılan kobud səhvlər, məlum qaragüruh qrupların hakimiyyət uğrunda çəkişməsi idi. Bütün bunlar həm torpaqlarımızı işğal edən Ermənistana, həm də Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrə öz separatçı planlarını həyata keçirmək üçün fürsət yaratmışdı.

1993-cü il iyunun əvvəllərində Gəncədə baş verən hadisələr, qardaş qırğını ilə üzləşməyimiz də hakimiyyətdə olan qüvvələrin idarəçilikdəki kobud səhvlərinin nəticəsi idi. Bu kimi hadisələrlə yanaşı, Ermənistanın işğalçılıq planlarını genişləndirməsi və ərazilərimizdə separatçılığın baş qaldırması dövlətçiliyimizi və müstəqilliyimizi sürətlə məhvə doğru sürükləyirdi.

O ağır və faciəli günlərdə bütün xalqımızın nəzəri haqlı olaraq Naxçıvana yönəlmişdi. Çünki hər kəs yaxşı bilirdi ki, ölkəmizi üzləşdiyi problemlərdən yalnız Heydər Əliyev dühası xilas edə bilər. Çünki buna qədər xalqımız Heydər Əliyevdən dövlətə xidmət məramının ən mükəmməl nümunələrini görmüşdü. Eləcə də Ulu Öndərin ağır blokada vəziyyətində olan Naxçıvanı işğaldan qətiyyətlə qoruması da Azərbaycan ictimaiyyətinə məlum idi. Ona görə siyasi və sosial statusundan, vəzifəsindən, yaşından asılı olmayaraq hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyin, itaətsizliyin, anarxiyanın, siyasi çəkişmələrin, Gəncədə başlanmış qardaş qırğınının, qanunsuz silahlı dəstələrin hərəkətlərinin qarşısını yalnız Heydər Əliyevin müdrikliyi və siyasi təcrübəsi ala bilər. Bu mənada Heydər Əliyevə edilən müraciətlər, göndərilən məktublar, teleqramlar xalqımızın məhz Heydər Əliyevin liderliyi ilə bütün təhlükələrdən xilas ola biləcəyinə inamının göstəricisi idi. Eyni zamanda həmin hakimiyyətdə olan və vaxtilə Naxçıvanda Heydər Əliyevə qarşı təxribata cəhd etmiş siyasi qaragüruh da vəziyyətdən çıxış yolunu Ulu Öndərin Bakıya gəlişində görürdü.

Heydər Əliyev dövlətinə və xalqına, öz milli dəyərlərinə son dərəcə bağlı olan vətənpərvər şəxsiyyət idi və əlbəttə ki, o illərdə respublikada baş verənlər onu dərindən narahat edirdi. Buna görə Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələrək özünün tarixi xilaskarlıq missiyasını həyata keçirməyə başladı.

Ulu Öndərin Naxçıvandan Bakıya gəldikdən sonra Gəncəyə səfəri, hərbi-siyasi problemlərin aradan qaldırılması istiqamətində həyata keçirdiyi fəaliyyət müasir tariximizin hər zaman təbliğ olunmalı və ibrət götürülməli səhifəsidir. Çünki məhz Heydər Əliyevin Bakıya gəlişi ilə qardaş qırğınının və vətəndaş qarşıdurmasının qarşısı alındı. Heydər Əliyev öz müdrikliyi ilə növbəti vətəndaş qırğınlarının həyata keçirilməsinə imkan vermədi. Bu mənada Ulu Öndərin Naxçıvandan Bakıya gəlişi Azərbaycanı məhvə aparan proseslərin axarını kökündən dəyişdi və hər kəs rahat nəfəs aldı, xalqımızın sabaha olan inamı yenidən cücərdi.

Heydər Əliyevin Bakıya gəldikdən 6 gün sonra - 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə Ulu Öndərin xilaskarlıq missiyasına olan ümid və inamların göstəricisi idi. Bununla da Heydər Əliyevin liderliyi ilə dövlətçiliyimizə və müstəqilliyimizə qarşı hazırlanmış bütün məkrli planların iflasa uğradılması prosesi başladı və iyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev dühasının xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu. Ulu Öndər Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu istəməyən, separatizmə qızışdırmaqla respublikamızın parçalanmasına çalışan bütün antiazərbaycançı qrupların məkrli planlarını darmadağın etdi. Bütün bunlar Heydər Əliyev siyasətinin tariximizin ən ağır və mürəkkəb problemlərini belə həll etmək iqtidarında olduğunu nümayiş etdirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıqdan başlamış müasir dövlətimizin qurulmasına, inkişaf yoluna çıxarılmasına kimi şərəfli missiyanı uzaqgörənliklə, müdrikliklə yerinə yetirdi. Bu missiyanın möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində isə Azərbaycan ötən 20 ildə tarixinin ən qüdrətli və qarşısında dayanan bütün hədəflərinə çatmağa qadir dövlətinə çevrildi. Cənab İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində qazanılan qələbə, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması, o cümlədən antirerror tədbirləri ilə ərazilərimizdə erməni separatizminə birdəfəlik son qoyulması bir daha Heydər Əliyev siyasətinin təntənəsi kimi tariximizə həkk olundu.

*Cəbi QULİYEV,*
*Milli Məclisin deputatı*

# Heydər Əliyev Mərkəzində "Təbəssüm bağı" sərgisi açılıb

**İyunun 7-də Heydər Əliyev Mərkəzində tanınmış çinli rəssam Yüe Mincünun "Təbəssüm bağı" adlı fərdi sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, sərgidə rəssamın "Avtoportret" və "Güllər" silsilələrinə aid əsərləri - rəsm və heykəltaraşlıq nümunələri təqdim olunur.**







Açılış mərasimindən əvvəl rəssam Yüe Mincünun jurnalistlərə müsahibəsində əsərlərində bir insanın həyatında baş verən hansısa bir hadisəni gülüş vasitəsilə ifadə etməyə çalışdığını deyib. "Rəsmləri ilk dəfə gördükdə orada təsvir olunan insan seyrçilərə xoşbəxt görsənə bilər, lakin diqqətlə baxanda tamamilə fərqli mənzərə yaranır. Təbəssüm həmişə xoşbəxtliyi simvolizə etmir, o həmçinin fərqli bir məna daşıya bilər", - deyə fırça ustası bildirib. Azərbaycana ilk dəfə gəldiyini söyləyən rəssam Bakı şəhərinin fərqli arxitekturaya sahib olduğunu qeyd edib.

Müasir Çin incəsənətinin tanınmış nümayəndəsi olan Yüe Mincünun "Avtoportret" silsiləsindən olan əsərləri dünya incəsənətində əks-səda doğurub. Həmin silsilədə yaradılan obrazların hamısında geniş təbəssümlü insanlar təsvir olunub. Bəziləri həmin təbəssümü "istehza gülüşü" adlandırır, digərləri isə onun dramatik və kədərli olduğu qənaətindədir. İstənilən halda həmin obrazlardakı təbəssümlər dərhal yaddaşlara həkk olunur.

Rəssamın digər məşhur silsiləsi "Güllər"dir. Həmin əsərlərdə COVID-19 pandemiyasının səbəb olduğu məhdudiyyətlərin yaratdığı fəsadlar rəssamın təxəyyülünə uyğun əks olunur. Belə ki, bu incəsənət nümunələrindəki obrazların üzünü tibbi maska deyil, güllər bağlayır.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov Azərbaycan və Çin münasibətlərinin hər zaman inkişaf etdiyini və indiki zamanda mədəniyyət sahəsində olan əlaqələrin ən səmərəli dövrünü yaşadığını vurğulayıb. "Son illər Heydər Əliyev Fondu tərəfindən Çin Xalq Respublikasında bir çox layihə və sərgi təşkil olunub. Mərkəz Çin incəsənətinin tanınması, təbliği istiqamətində hər zaman böyük layihələrə imza atıb. Nümunə olaraq Çin incəsənətinin tanınmış nümayəndəsi, rəssam Vanq Yuyanqın fərdi sərgisinin bir neçə il öncə mərkəzdə nümayiş olunmasını göstərmək olar. Ümid edirik ki, budəfəki sərgi də ziyarətçilər arasında böyük maraqla qarşılanacaq".

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Çin rəssamlarının əsərlərinin son 30 ildə dünya sənətinə təsir etdiyini deyib: "Bu ölkənin fırça ustaları müasir sənəti ən yüksək səviyyədə dünyaya çatdırırlar".

Honq Konq şəhərindəki Tanq Müasir İncəsənət Məkanının direktoru xanım Van Yi Yip bildirib ki, fərdi sərgidə yer alan əsərlər Yüe Mincünun bütövlükdə incəsənətə yanaşmasını göstərir. "Bu sərginin təşkil olunmasında iştirak etmək mənim üçün böyük şərəfdir", - deyə Van Yi Yip əlavə edib.

Rəssam Yüe Mincün öz növbəsində göstərdiyi dəstəyə görə Heydər Əliyev Mərkəzinin rəhbərliyinə təşəkkürünü bildirib. O, sərgi üçün mövzu seçərkən bir neçə variantı nəzərdən keçirdiyini və yekun olaraq "Təbəssüm bağı" adlandırmağa qərar verdiyini söyləyib. Rəssam bu layihənin ərsəyə gəlməsində əməyi keçənlərə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Yüe Mincünun Çinlə yanaşı, müxtəlif ölkələrdə - ABŞ, Almaniya, Avstriya, Belçika, Böyük Britaniya, Danimarka, Fransa, Xorvatiya, İndoneziya, İslandiya, İspaniya, İsveçrə, İtaliya, Koreya, Kuba, Niderland, Sinqapur, Tailandda fərdi sərgiləri keçirilib, əsərləri dünyanın tanınmış qalereya və muzeylərinin kolleksiyalarında yer alıb. Yüe Mincünun Heydər Əliyev Mərkəzində nümayiş olunan "Təbəssüm bağı" sərgisi oktyabrın 27-dək davam edəcək.

# Yelena VASİLYEVA: "Azərbaycan Sankt-Peterburq neft terminalının yenidən qurulmasında aparıcı rol oynayır"

**Rusiya Federasiyasının şimal paytaxtındakı "Ekspoforum" sərgi mərkəzində XXVII Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu (SPİEF) öz işini bitirib. Müzakirələrin əsas mövzusu "Çoxqütblülüyün əsası - yeni inkişaf mərkəzlərinin formalaşması" idi. "Azərbaycan" qəzetinin əməkdaşı da bu tədbirə dəvət olunmuşdu. Onun Sankt-Peterburqda keçirilən tədbir çərçivəsində aldığı növbəti müsahibəni təqdim edirik.**

Bu il SPBİF-də 139 ölkə və ərazi iştirak edir, onlardan 45-i yüksək səviyyədə təmsil olunur. Tədbirin biznes proqramı dörd tematik trekdən ibarətdir: "Dünya iqtisadiyyatının çoxqütblü modelinə keçid", "Rusiya iqtisadiyyatı: yeni dövrün məqsəd və vəzifələri", "Liderliyi təmin edən texnologiyalar" və "Sağlam cəmiyyət, ənənəvi dəyərlər və sosial inkişaf - dövlət prioritetləri".

Proqrama 1000-dən çox moderatorun və məruzəçinin iştirak etdiyi 150-dən çox tematik sessiya daxildir.

Sankt-Peterburq Neft Terminalı (PNT) SPBİF pavilyonunda ən böyük stendlərdən biri ilə təqdim olunub. Əsl liderə xas olan şəkildə onun işinə PNT-nin rəhbəri, Direktorlar Şurasının sədri Yelena Vasilyeva diqqətlə nəzarət edir. Biz ona yaxınlaşıb stenddəki işləri ilə maraqlandıq.

*- Bizə PNT stendi haqqında məlumat verə bilərsinizmi?*

- Təəssüf ki, biz sizə hər şeyi söyləyə və bütün təfərrüatları göstərə bilmərik. Amma bizim stenddəki videoçarxımız terminalda üç ildən artıq davam edən yenidənqurmadan bəhs edir. Stenddə siz həmçinin növbəti iki il üçün inkişaf planı ilə də tanış ola bilərsiniz. Biz yenidənqurma işlərinin birinci mərhələsini 2025-ci ilin sonunda başa çatdırmalıyıq ki, nəql edilən yüklərin daha geniş spektrini almaq imkanı qazanaq. Terminal yenidən qurulur, yeni sistemlər tikiləcək. Biz parlaq gələcəyə hazırlaşırıq.

*- Müsahibələrinizin birində dediniz ki, Azərbaycan sizin əsas tərəfdaşınızdır. Nə üçün bu həm PNT, həm Sankt-Peterburq , həm də ümumilikdə Rusiya üçün vacibdir?*

- Hər kəs bilir ki, Azərbaycan neft ticarəti sənayesində ən böyük ölkələrdən biridir. Terminalın yenidən qurulmasında əsas rolu PNT-nin ən iri podratçılarından biri olan Azərbaycanın "Energiya" Elm İstehsalat Birliyi Səhmdar Cəmiyyəti oynayır. Bu yenidənqurma həm də ekoloji cəhətdən daha təmiz və sərfəli məhsullara diqqət yetirməklə emal edilən yüklərin çeşidini genişləndirməyə yönəldilib. PNT Azərbaycanın bir çox şirkəti ilə konstruktiv dialoq aparır və onları perspektivli tərəfdaşlar kimi görür.



Azərbaycan şirkətlərinin iştirakı ilə PNT-nin yenidən qurulması layihəsinin həyata keçirilməsi Rusiya ilə Azərbaycan arasında möhkəm əlaqələri nümayiş etdirir, həmçinin infrastrukturun və neft sektorunun inkişafında beynəlxalq əməkdaşlığın vacibliyini göstərir.

Planlarımıza metal konstruksiyalar, boru kəmərləri, elektrik məhsulları və avadanlıqların tədarükü daxildir. Biz bir yerdə dayanmırıq, çünki yaxşı qarşılıqlı əlaqəmiz və uğurlu əməkdaşlıq təcrübəmiz var. Bu əlaqələrdən və əməkdaşlıqdan məmnunuq. Ona görə də düşünürəm ki, gələcəkdə ikinci və üçüncü mərhələlərimiz olanda müqavilələrin sayı artacaq. Azərbaycan bizim üçün etibarlı və ən əsası, çox perspektivli tərəfdaşdır, çünki onlar bu sahənin ən böyüyüdür və ən böyüklərlə işləmək də bizim üçün çox xoşdur.

*- Sizcə, gələcəkdə Azərbaycanla daha hansı uğurlu layihələr həyata keçirilə bilər?*

- Məsələn, bizim Azərbaycanla treyder kimi işləmək təcrübəmiz yoxdur və bu istiqamətdə əməkdaşlıq üçün bütün qapılarımız açıqdır.

Təklifləri gözləyirik. Bizə qarşı sanksiya rejiminin güclənməsi şəraitində yəqin ki, çoxlu yeni birgə faydalı ideyalar tapacağımız tamamilə mümkündür. Sankt-Peterburq Neft Terminalı bunu Azərbaycandan gözləyir.

*Elçin VƏLİYEV,*
*"Azərbaycan"*

*Sankt-Peterburq*

# Arxiv işi rəqəmsal transformasiya astanasındadır

## ◆ 9 İyun Beynəlxalq Arxivlər Günüdür

**Hər bir millət əsrlər boyu formalaşan bir tarixi mirasın sahibidir və onun önəmli hissəsi arxivlərdə qorunur. Beynəlxalq Arxivlər Şurasının qərarı ilə 2007-ci ildən etibarən dünyada hər il 9 İyun Beynəlxalq Arxivlər Günü kimi qeyd edilir. Beynəlxalq Arxivlər Şurası 200-dən artıq dövlətin arxivçilərinin birləşdiyi böyük təşkilat olaraq insanların müharibəsiz yeni dünyaya ümid və inamlarının yarandığı bir dövrdə qurulmuş mötəbər beynəlxalq təşkilatdır. Təşkilatın əsas məqsədi bəşəriyyətin mədəni irsi və keçmişin yaddaşı olan arxiv sənədlərini hər cür zərərli hadisələrdən qorumaqdır. Mümkün texniki, iqtisadi, metodoloji və inzibati resurslardan faydalanmaqla arxiv məlumatlarından insanlığın inkişafı, cəmiyyətlərin tərəqqisi naminə istifadə təmin edilir.**

Azərbaycanın dövlət arxiv xidməti təşkilatları bu sahə üzrə beynəlxalq təşkilatların tövsiyələrini fəaliyyətlərində nəzərə alır, dünyanın qabaqcıl təcrübəsini öyrənir, işində tətbiq edir və müasir zamanın çağırışlarına uyğun olaraq xalqın mədəni-tarixi irsinin qorunmasına, inkişafına və tanıdılmasına öz layiqli töhfələrini verirlər.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə informasiya cəmiyyətinin formalaşdırılması və Azərbaycanın dünyanın inkişaf tendensiyalarına uyğun modern dövlətə çevrilməsi məqsədilə strateji əhəmiyyətli qərarlar qəbul etmiş və respublikanın müvafiq sahədə inkişafı üçün mükəmməl qanunvericilik bazasını formalaşdırmışdır. Elektron imza, rəqəmsal hökumətə keçid, dövlət orqanlarında daxili idarəetmə proseslərinin avtomatlaşdırılması, dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, inteqrasiyası, arxivləşdirilməsi, dövlət orqanları arasında sənəd mübadiləsini elektronlaşdırmaqla "kağızsız hökumətə" keçid, rəqəmsal idarəçiliyin tətbiqi və bu proseslərin sürətləndirilməsinə xidmət edən qanunlar və qaydalar təsdiq edilmişdir.

Milli arxiv fondu tarixi keçmişimizin müxtəlif mərhələlərində formalaşan xalqın yazılı, səsli, görüntülü yaddaşının qorunub saxlanıldığı dövlətin unikal və çoxşaxəli informasiya ehtiyatları sisteminin tərkib hissəsidir. Onun informasiya bazasının zənginliyi komplektləşdirmə mənbəyi olan təşkilatların, fiziki şəxslərin arxiv məlumat daşıyıcılarındakı informasiyalarının rəngarəngliyi və çoxşaxəliliyi ilə ölçülür. Yeni texnoloji nailiyyətlərdən geniş istifadə olunduğu müasir şəraitdə Milli arxiv fondunu elektron məlumat daşıyıcılarında qəbul etməklə informasiya potensialının zənginləşdirilməsi dövlət arxiv xidməti təşkilatlarının əsas vəzifələrdən biri hesab edilir. Bu məqsədlə respublikamızda arxiv işi sahəsində qüvvədə olan normativ hüquqi baza təkmilləşdirilir və yeni texnoloji infrastruktur formalaşdırılır. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın əsas istiqamətlərindən biri də məhz arxiv işində informasiya-kommunikasiya texnologiyaları tətbiq etməklə Milli arxiv fondu sənədlərinin mühafizəsi və istifadəsi işinin səmərəli təşkilidir. Milli Arxiv İdarəsi bu məqsədlə zəruri tədbirlər həyata keçirir. İdarə tərəfindən hazırlanmış təkliflər əsasında "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilmiş, müvafiq qanunun 5-ci maddəsində Milli arxiv fondunun tərkibinə daxil edilən sənədlərin təsnifatına elektron sənədlər, sənəd əslini əvəz edən elektron sənəd nüsxələri əlavə edilmişdir. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli qərarı ilə "Milli arxiv fonduna məxsus elektron sənədlərin dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları" təsdiq olunmuşdur. Qəbul olunan normativ hüquqi sənədlər elektron sənədlərin dövlət mühafizəsinə qəbulu, arxiv işinin elektronlaşdırılması, Milli arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması qaydalarını müəyyən etməklə arxiv işinin müasir texnoloji əsasda inkişaf etdirilməsiə imkanlar yaratmışdır.



Artıq Milli Arxiv İdarəsi və onun tabeliyindəki dövlət arxiv xidməti təşkilatları tərəfindən bu sahədə praktiki fəaliyyətə başlanılmışdır. Arxiv işinin elektronlaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri dövlət mühafizəsində olan 10 mindən artıq arxiv fondunun (ümumi fondların 65 faizə yaxınının) tərkibi və həcmi barədə müfəssəl məlumatların məcmusu olan elektron məlumat bazasının yaradılması və onun dövlət informasiya resursu olaraq qeydiyyata alınmasının təmin edilməsi olmuşdur. Dövlət arxiv resurslarının tərkib hissəsi olan bu məlumat bazası istifadəçilər üçün açıqdır və idarənin rəsmi internet resursları üzərindən həmin arxiv məlumatlarla tanış olmaq imkanı yaradılmışdır. Arxiv işinin elektronlaşdırılması sahəsində həyata keçirilən tədbirlərin siyahısına respublikamızın dövlət arxiv xidməti təşkilatlarında ənənəvi olaraq yaradılan elmi-məlumat vasitələrinin (arxiv siyahıları və kataloq sisteminin) bazasında arxiv sənədlərinin elektron məlumat-axtarış sisteminin formalaşdırılması işinə başlanılmasını da aid etmək olar. Bu məqsədlə dövlət mühafizəsində olan yüz minlərlə saxlama vahidi (uçot vahidi) sənədin arxiv siyahıları üzrə təsvir elementlərinin elektron qeydiyyatı aparılır, kinofotofono sənəd və çap məhsulunun kataloq vərəqlərinin müvafiq informasiya sistemində elektron nüsxələrinin yaradılması həyata keçirilir. Bununla yanaşı, hazırda dövlət arxivlərimizdə mühafizə olunan dövlət və cəmiyyət üçün daha aktual olan və elmi-tarixi əhəmiyyətə malik sənədlərin mərhələli olaraq rəqəmsal surətlərinin yaradılması işi icra edilir. Arxivlərin məhdud əmək resurslarına malik olmasına baxmayaraq, qısa müddətdə dövlət mühafizəsində olan təxminən dörd milyondan artıq arxiv sənədinin elektron faylı yaradılaraq sistemdə qeydiyyatı aparılmışdır.

Arxiv işində tətbiq edilən yeniliklərdən biri də dövlət arxivləri tərəfindən əhaliyə göstərilən arxiv xidmətlərinin elektronlaşdırılmasına keçidin təmin edilməsidir. Hazırda elmi-tədqiqat və sosial hüquq xarakterli müraciətlər, arxiv sənədlərinin dövlət mühafizəsinə qəbulu, habelə ləğv olunmuş və mülkiyyət forması dəyişdirilmiş təşkilatların arxiv fondlarının yerləşdiyi ünvanların təyin edilməsi üzrə göstərilən arxiv xidmətlərinin elektron formada icrası təmin olunur. Onu da qeyd edək ki, təkcə ötən ildə arxiv sənədləri əsasında məlumatların alınması üzrə dövlət arxivlərinə daxil olan ümumi müraciətlərin 47 faizinin (23.000-dən artıq sorğu) elektron hökumət portalı və "ASAN xidmət" mərkəzləri üzərindən elektron formada cavablandırılması təmin edilmişdir.

Dövlət proqramında arxiv işində İKT-nin tətbiqi ilə bağlı qarşımıza qoyulmuş tapşırıqlardan biri də Milli Arxiv İdarəsində Vahid elektron arxiv informasiya sisteminin formalaşdırılmasıdır. Bu məqsədlə idarədə kompleks tədbirlər həyata keçirilmiş, Milli arxiv fondu sənədlərinin mühafizəsi, uçotu, istifadəsi və idarəedilməsi işinin elektronlaşdırılması məqsədilə zəruri texniki və texnoloji infrastruktur formalaşdırılmışdır. Milli arxiv resurslarının səmərəli idarəolunması və arxiv məlumatlarına əlçatanlığın təmin edilməsi məqsədilə idarədə Vahid elektron arxiv informasiya sisteminin formalaşdırılması işi yekunlaşdırılmış və sistemin dövlət qeydiyyatının təmin edilməsi üçün ilkin təşkilati işlər həyata keçirilməkdədir.

Arxiv sənədlərinin idarəedilməsi sahəsində ümumi varislik prinsiplərinə, vahid texniki şərtlərə və struktura əsaslanan informasiya sisteminin yaradılması bütövlükdə dövlət arxiv fondu ehtiyatlarının etibarlı mühafizəsinə, onların tərkibinin optimallaşdırılmasına, bu sahədə izafi əmək və maliyyə resusrlarının xərclənməsinin qarşısının alınmasına hədəflənmişdir.

Hazırda ölkəmiz bütövlükdə idarəetmə proseslərinin, o cümlədən hüquqi və fiziki şəxslərə göstərilən dövlət xidmətlərinin tam olaraq elektronlaşdırılması və "kağızsız hökumət"ə keçid mərhələsindədir. Sənədlərin idarəolunması, arxiv işinin təşkili kimi mühüm sahələrdə də ciddi texnoloji transformasiyalar baş verməkdədir. Bu texnoloji dəyişikliklər və həyata keçirilən tədbirlər yaxın illərdə dövlət arxivlərimizi cari dövr üçün qismən aktual olan, lakin zamanla gələcək nəsil üçün elmi-tarixi və hüquq baxımından potensial informasiya mənbəyi hesab edilən elektron sənədlərin mühafizə olunduğu nəhəng informasiya mərkəzlərinə çevirəcəkdir.

Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, arxiv işi donub qalmış, dəyişməz deyil, daim inkişaf edən, təkmilləşən, dövlətin və cəmiyyətin inkişafına xidmət edən mühüm fəaliyyət sahəsidir. Azərbaycan arxivləri zamanın çağırışlarına uyğun dəyişir, yenilənir və dinamik olaraq inkişaf edirlər.

*Həsən HƏSƏNOV,*
*Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəis müavini*



# Azərbaycan-Misir münasibətlərində yeni inkişaf dövrü başlayır

## İki ölkə arasında imzalanan sənədlər əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək

**Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən xarici siyasət nəticəsində dövlətimiz dünyada etibarlı tərəfdaş kimi tanınır. Ən yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlər isə ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə mühüm töhfə verir.**

Azərbaycanın çoxşaxəli xarici siyasətində əsas vektorlardan biri də ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsidir. İslam həmrəyliyi prinsipini daim rəhbər tutan Azərbaycan bu xüsusda ərəb dövlətləri ilə həm ikitərəfli, həm də İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır.

Azərbaycan-Misir əlaqələri bu gün sürətlə inkişaf edir. Bu əməkdaşlığın qədim tarixi kökləri var. Hələ sovet dönəmində Azərbaycanla Misir arasında mehriban dostluq əlaqələri olub. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Ümummilli Lider Heydər Əliyev ilə Misir Prezidenti Hüsnü Mübarək arasında dostluq münasibətləri əməkdaşlığımızın inkişafı üçün yaxşı zəmin yaradıb. Bu gün həmin siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Afrika qitəsinin şimal-şərqində, Yaxın Şərq bölgəsində yerləşən Misir Ərəb Respublikası 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyıb. 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən, Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb.

Qeyd edək ki, hələ 1958-ci ilin mayında keçmiş SSRİ-də rəsmi səfərdə olan Misirin o dövrdəki Prezidenti Camal Əbdülnasir Bakıya gəlib və ölkəmizdən çox böyük təəssüratlarla ayrılıb.

Ulu Öndər Heydər Əliyev iki ölkə arasında münasibətlərin inkişafına daim böyük önəm verirdi. 1994-cü ilin sentyabrında Ulu Öndər Heydər Əliyev BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirəyə işgüzar səfəri zamanı Misir Prezidenti Hüsnü Mübarəklə görüşüb. Bu görüş Azərbaycan-Misir münasibətlərinin möhkəmləndirilməsində və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edib. İki ölkə arasında münasibətlərin gələcəyinin müəyyənləşdiyi bu səfərdən sonra Azərbaycan ilə Misir arasında müxtəlif sahələri əhatə edən çoxsaylı sənədlər imzalanıb. İki ölkə arasında əlaqələrin inkişafının nəticəsi olaraq 2005-ci il noyabrın 6-13-də Misirdə Azərbaycan və 2006-cı il noyabrın 20-28-də Azərbaycanda Misir mədəniyyəti günləri keçirilib.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində Misir Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ölkəmizin ədalətli mövqeyini daim müdafiə edib.

Azərbaycan-Misir əlaqələrinin inkişafına təkan verən növbəti səfər isə 2007-ci il mayın 6-8-də reallaşıb. Prezident İlham Əliyevin Misirə rəsmi səfəri zamanı Prezident Hüsnü Mübarəklə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi, misirli iş adamlarının Azərbaycana sərmayə qoyulmasına cəlb edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb və müxtəlif sahələri əhatə edən 12 sənəd imzalanıb.

2008-ci ildə Qəlubiyyə vilayətində Misir-Azərbaycan dostluq parkının, parkda Ümummilli Lider Heydər Əliyevin abidəsinin və "Azərbaycan" küçəsinin açılışı olub. Abşeron rayonu ilə Qəlubiyyə vilayəti arasında əməkdaşlıq, Cənubi Sinay vilayəti və Qəbələ rayonu arasında 2015-ci ildə dostluq sazişinin imzalanması digər regionlar arasında da əməkdaşlıq üçün nümunə olub.

Ötən il yanvarın 27-28-də Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana rəsmi səfəri də yaddaqalan olub. Prezident İlham Əliyevlə geniş tərkibdə görüş başa çatdıqdan sonra iki ölkə arasında bir sıra sənədlər imzalanıb.

İki ölkə beynəlxalq təşkilatlarda - BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında birgə fəaliyyət göstərir və bir-birini dəstəkləyir. Ölkələrimiz arasında ticari-iqtisadi məsələlər də gündəmdədir. Buraya əczaçılıq, sənaye sahələri, alüminium sənayesi, energetika, neft sənayesi, o cümlədən bərpaolunan energetika sahəsi və sairə daxildir. Bu istiqamətlərdə əməkdaşlıq üçün geniş perspektivlər var.

Azərbaycanda ticarət, sənaye və xidmət sahələrində Misir investisiyalı 10-dan çox şirkət fəaliyyət göstərir. İki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial var. Enerji sahəsində əlaqələr çoxşaxəlidir və bunun genişləndirilməsi üçün tədbirlər həyata keçirilir, SOCAR Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlıq edir. Əlaqələrimiz turizm sahəsində də inkişaf edir və son illər Misirdən Azərbaycana gələn turistlərin sayı 50 faiz artıb. Eyni zamanda Azərbaycanla Misir arasında bir sıra mühüm sosial layihələr həyata keçirilir.

Bu baxımdan Prezident İlham Əliyevin iyunun 7-də Misirə rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verəcək, münasibətlərin inkişafında yeni səhifə açacaq.

Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə Misir Prezidenti Əbdülfəttah Əs-Sisi ilə Prezident İlham Əliyev arasında təkbətək və geniş tərkibdə görüşlər keçirilib. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

İyunun 8-də Qahirədə prezidentlərin iştirakı ilə iki dost ölkə arasında müxtəlif sahələri əhatə edən daha 6 mühüm sənəd imzalanıb. Təbii ki, imzalanan sənədlər ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək.

Mətbuata bəyanatlarında dövlət başçıları deyiblər ki, iki dost ölkə arasında hərtərəfli münasibətlər bundan sonra daha da inkişaf edəcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# XİN: "Azərbaycan, hər zaman olduğu kimi, beynəlxalq sülh və inkişafa öz töhfəsini verəcək"

**Azərbaycan Respublikası 148 ölkənin səs çoxluğu ilə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2025-2027-ci illər üzrə üzvlüyünə seçilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, ECOSOC üzvlüyünə seçkilər BMT Təhlükəsizlik Şurasından sonra ən rəqabətli seçkilər hesab olunur. Azərbaycan Respublikası indiyədək iki dəfə - 2003-2005-ci və 2017-2019-cu illərdə ECOSOC-un üzvü olub. Əlli dörd üzvü olan ECOSOC BMT-nin əsas orqanlarından biri olub, BMT-nin 14 ixtisaslaşmış təşkilatının, onların funksional komissiyalarının və 5 regional komissiyanın iqtisadi, sosial sahələrdə işini əlaqələndirir.

Qeyd olunub ki, BMT-nin İqtisadi və Sosial Şurası kimi mötəbər quruma Azərbaycanın belə yüksək səslə üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunun və sosial-iqtisadi sahədə son onillikdə əldə etdiyi nailiyyətlərə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətin göstəricisidir.

Vurğulanıb ki, Azərbaycan Şuraya üzvlüyü dövründə, hər zaman olduğu kimi, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq beynəlxalq sülh və inkişafa öz töhfəsini verəcək.

# Azərbaycanın sədrliyi TÜRKPA-nın nüfuzunu daha da artıracaq

**"Türk Dövlətləri Parlament Assambleyasının Bakıda növbəti sessiyasının keçirilməsi türk dünyası birliyinin növbəti nümayişi oldu. TÜRKPA-nın nümayəndə heyətləri iki gün ərzində türk dövlətlərini maraqlandıran məsələlər üzrə ölkəmizdə fikir mübadiləsi apardı, bir-birinin müsbət təcrübələrindən istifadə məsələlərinə toxundular".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, bütün bunlar türk dövlətlərini bir-birinə daha da yaxınlaşdırır. Prezident İlham Əliyev andiçmə mərasimində "Bizim ailəmiz türk dünyasıdır" deyə bəyanatını etmişdi. Bununla da xarici siyasətində türk dövlətləri ilə əməkdaşlığın prioritet olacağını diqqətə çatdırmışdı. Bunu fevral ayından bəri dövlətimizin başçısının xarici siyasətində daha qabarıq şəkildə görürük. "Əvvəllər də türk dövlətləri ilə əməkdaşlıq Azərbaycan üçün əsas məsələlərdən biri idi. Amma bu əməkdaşlıq və birlik getdikcə artmaqdadır", - deyə deputat bildirib.

Növbəti bir ildə TÜRKPA-ya Azərbaycanın sədrlik edəcəyini xatırladan A.Mirzəzadə qeyd edib ki, ölkəmiz bu təşkilatın nüfuzunun qaldırılmasında böyük rol oynayacaq: "Prezident İlham Əliyevin Şuşada Türk dövlətlərinin qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü də yüksək dəyərləndirilib. Türk liderləri dünyaya bir daha öz güclərini və həmrəyliklərini göstərəcəklər. Daha çox məsələlərdə birgə fəaliyyətlə öz regional və qlobal mövqelərini möhkəmləndirəcəklər".

Deputat xatırladıb ki, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə türk dövlətləri də dəstək verirlər. Türkiyənin isə həm dövlət səviyyəsində, həm də özəl sektorunun Qarabağ və Şərqi Zəngəzurda bərpa işlərində iştirakı qürurvericidir.

A.Mirzəzadə qeyd edib ki, Azərbaycan türk dünyasının nüfuzunun qalxmasına həmişə layiqli töhfələr verir. TÜRKPA-nın Bakıda keçirilən iclası, türk dövlətləri başçılarının Şuşada gözlənilən görüşü bu dövlətlər arasında əlaqələrin daha da inkişafına xidmət edəcək. Azərbaycanın TÜRKPA-ya sədrliyi isə təşkilatın nüfuzunu bir qədər də artıracaq.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Türk dövlətləri həmişə Azərbaycanın haqq işini müdafiə ediblər

**"Prezident İlham Əliyev TÜRKPA nümayəndə heyətini qəbul edərkən Azərbaycanın türk dövlətləri ilə bu günə qədər olan münasibətlərinə toxunaraq mühüm məsələlərə dair fikirlərini bildirmişdi. Dövlət başçısı bir daha bəyan etmişdi ki, bizim ailəmiz türk dünyasıdır, başqa ailəmiz yoxdur".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Qərb dövlətləri Azərbaycanın Qarabağla bağlı haqqını heç vaxt müdafiə etməyiblər. XX əsrin əvvəllərində Cümhuriyyət elan olunanda Azərbaycana hansı münasibət göstərmişdisə, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra da eynisini müşahidə etdik. Qərb bir dəfə də olsun tarixi torpaqları işğal olunan Azərbaycanın haqq səsini eşitmədi. Hansı yolla olursa-olsun, Ermənistanı dəstəklədi. "Qərb dövlətləri beynəlxalq tribunalarda Ermənistanı haqlı hesab edərək həm də hərbi cəhətdən ona kömək etdilər. Əksər vaxt da Ermənistana verilən silahların qarşılığında pul almadılar. Bu isə terrorçu dövlətə dəstək verməklə yanaşı, onu işğala daha da həvəsləndirmək idi, - deyə deputat bildirdi.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev qəbulda Azərbaycan və Ermənistan arasında münasibətlərə də toxunub. Sülh müqaviləsinin imzalanması üçün artıq hər cür şəraitin yarandığını vurğulayıb. Ermənistan rəhbərliyi Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü diqqətə çəkib. Son vaxtlarda iki ölkə arasında gedən delimitasiya və demarkasiya prosesi, həmçinin Qazaxın 4 kəndinin geri qaytarılması sülhə yaxın olduğumuzu göstərir. Ermənistan Qərbin diktəsini qəbul etməsə, öz ağlı ilə Cənubi Qafqazın müstəqil dövləti kimi məsələlərə yanaşsa, problem həllini tapacaq. Əslində, Ermənistan Azərbaycanla rəqabət apara, torpaqlarımızda qərar tuta bilməyəcəyini də dərk edir.

A.İsgəndərov vurğulayıb ki, ədaləti və haqqı müdafiə etmək türk dövlətlərinin siyasətinin ana xəttidir. Türk dövlətləri bu günə qədər Azərbaycanın da haqq işini müdafiə ediblər. TÜRKPA-ya sədrliyin artıq Azərbaycana keçdiyini diqqətə çatdıran deputat bildirib ki, ölkəmizin digər təşkilatlarda olduğu kimi, bu quruma sədrliyi də uğurlu olacaq və onun nüfuzunun artırılmasına xidmət edəcək.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# Qərbi Azərbaycan İcması dünya ictimaiyyətini Ermənistana təzyiq göstərməyə çağırıb

**Son günlər Ermənistan hökuməti və parlament rəhbərliyi Azərbaycana qarşı konstitusion səviyyədə ərazi iddiasını aradan qaldırmaqdan imtina edən və sülh prosesini pozmağa yönələn bəyanatlar verir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd edilib ki, Ermənistan parlamentinin sədri Alen Simonyan ölkəsinin həm beynəlxalq hüququn tələbi olaraq, həm də sülh prosesinin məntiqindən irəli gələrək atmalı olduğu addımları rədd etmiş və "etnik təmizləmə", "soyqırımı" kimi qəbulolunmaz ifadələrlə Azərbaycanı ittiham etməyə cəhd göstərib.

Alen Simonyan destruktiv iddialar irəli sürmək əvəzinə Ermənistandan azərbaycanlıların zorla qovulması, deportasiyası zamanı Qarakilsə, Basarkeçər, Qafan və digər yerlərdə azərbaycanlılara qarşı törədilmiş insanlıq əleyhinə cinayətlərə görə ölkəsinin məsuliyyətini etiraf etməli, qovulmuş azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə qayıdışının təmin edilməsi daxil olmaqla onların hüquqlarının bərpa edilməsi üçün çalışmalıdır.

Qərbi Azərbaycan İcması Ermənistan hakimiyyətinin qarşıdurma yolunu seçərək, regionda sülh perspektivlərini qeyri-müəyyən məcraya sürükləməsini pisləyir və dünya ictimaiyyətini Ermənistanın konstruktiv xətt tutması üçün bu ölkəyə təzyiq göstərməyə çağırıb.

# Azərbaycanla Butan arasında çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının iqamətgahı Nyu-Dehli şəhərində olmaqla, eyni zamanda Butan Krallığına təyin olunmuş səfiri Elçin Hüseynli etimadnaməsini Butan Kralı Ciqme Kxesar Namqyal Vanqçuka təqdim edib.**

Azərbaycanın Hindistandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, mərasimdən sonra baş tutan qəbul zamanı Butan Kralı səfiri təyinat münasibətilə təbrik edib və fəaliyyətində uğurlar arzulayıb. O, ölkəsində həyata keçirilən islahatlar, biomüxtəlifliyin və ətraf mühitin mühafizəsi üzrə görülən işlər barədə məlumat verib.



Səfir Azərbaycanın bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini deyib. O, noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitində iştirak məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Butan Kralına dəvət məktubunun ünvanlandığını diqqətə çatdırıb. Butana səfəri çərçivəsində səfir E.Hüseynli həmçinin ölkənin Baş naziri, xarici işlər və ticarət naziri, Milli Assambleyanın spikeri, Energetika və Təbii Sərvətlər Nazirliyinin katibi ilə görüşüb.

Görüşlər zamanı Azərbaycan ilə Butan arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri müzakirə olunub, parlamentlərarası əlaqələr, təhsil, turizm, ətraf mühitin mühafizəsi, bərpaolunan enerji kimi sahələrdə əlaqələrin genişləndirilməsinə maraq ifadə olunub.

Həmsöhbətlər ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə təşəbbüslərini və hazırda iqlim dəyişikliyi üzrə qlobal səylərini alqışlayıblar. Azərbaycanın beynəlxalq təhsil proqramlarında Butan vətəndaşlarının iştirakı üçün yaradılan imkana görə minnətdarlıq ifadə ediblər.

# BAKI ENERJİ HƏFTƏSİ

## Qlobal tərəfdaşlığın etibarlı platforması




## Qlobal "yaşıl enerji"yə keçidə Azərbaycan öz töhfələrini verir

**"Yaşıl enerji"yə keçid bu gün ölkəmizin enerji siyasətinin prioritetlərindən biridir. Respublikamızda son illər bu sahədə həyata keçirilən təqdirəlayiq, uğurlu işlər Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a yekdilliklə ev sahibi seçilməsində əhəmiyyətli rol oynadı.**

Hazırda qlobal enerji təhlükəsizliyində başlıca rol oynayan ölkələrdən biri olan Azərbaycan 1994-cü ildən - "Əsrin müqaviləsi"nin imzalanmasından keçən otuz il müddətində regionda və Avropada enerji təhlükəsizliyinə böyük töhfələr verib. Prezident İlham Əliyev iyunun 4-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında diqqətə çatdırdı ki, Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır: "O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, "yaşıl enerji"ni əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir".

Qeyd edək ki, ənənəyə çevrilmiş beynəlxalq tədbir bu il də uğurlarla yadda qaldı. İyunun 4-6-da keçirilən Bakı Enerji Həftəsinə 37 ölkədən 300-dək şirkət qatıldı. İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər bu tədbirdə ilk dəfə idi ki, iştirak etdilər. Ümumiyyətlə, builki sərginin tərkibi iştirakçıların ümumi sayının 15 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənmişdi. Bu da ölkəmizin "yaşıl enerji" sahəsinə xarici iştirakçıların marağının daha da yüksəldiyini, Azərbaycanın dünyanın enerji təhlükəsizliyində başlıca rola malik ölkələrdən biri olduğunu göstərdi.

Azərbaycanın növbəti dəfə uğurla evsahibliyi etdiyi beynəlxalq tədbirdə - Bakı Enerji Həftəsində qlobal enerji məsələləri müzakirə olundu.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev vurğuladı: "Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik".

Dövlət başçısı diqqətə çatdırdı ki, iqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır: "Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq". Prezident İlham Əliyev vurğuladı ki, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə, eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq: "Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik".

Ölkəmizdə bu sahədə artıq məqsədyönlü və təqdirəlayiq addımlar atılıb. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Ermənistanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, həmçinin Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib.

Otuzillik işğalına son qoyduğumuz ərazilərimizdə aparılan genişmiqyaslı tikinti, bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması başlıca yer tutur, ekosistem bərpa edilir. Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq olunur.

Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib: "3-5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir", - deyə 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bildirdi.

İqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması, "yaşıl enerji"yə keçidlə bağlı hərtərəfli fəaliyyəti, reallaşdırdığı mühüm işlər təsdiq edir ki, Azərbaycan dünyanın yaşıllaşması naminə, bu məqsəd ətrafında ölkələri birləşdirmək üçün effektiv addımlar atır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




## Bakı Enerji Həftəsi Azərbaycanın uğurlarını dünyaya təqdim etdi

**"Ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ənənə halını alıb. Azərbaycan enerji sektoru ilə bağlı mühüm tədbirlərə də evsahibliyi edir. Belə tədbirlərdən biri də 1994-cü ildə mənbəyini neft və qaz sərgisindən götürən və əhəmiyyəti ildən-ilə artan Bakı Enerji Həftəsidir. Bu tədbir özündə Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, Azərbaycan hələ 30 il əvvəl "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla öz enerji potensialını dünyaya təqdim edib: "Ölkəmiz qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri ilə dünyanın diqqət mərkəzindədir. Bu gün Azərbaycan regionun və Avropanın əsas enerji təminatçılarındandır. Ona görə də enerji münasibətlərində də özünü doğruldan ölkəmiz etibarlı tərəfdaş kimi qəbul edilir. Bakı Enerji Həftəsi isə Azərbaycanın enerji ilə bağlı müəyyən etdiyi yeni hədəflərini dünya ictimaiyyətinə çatdırması, eləcə də bu sahədə əməkdaşlığın gücləndirilməsinə nail



olunması istiqamətində uğurlu platformadır".

Deputat qeyd edib ki, Azərbaycanın COP29-a evsahibliyi edəcəyi bir dövrdə Bakı Enerji Həftəsinin keçirilməsi xüsusilə əhəmiyyətlidir: "Bu platforma, ümumiyyətlə, regionun enerji sahəsində mühüm hadisədir. Çünki Azərbaycanın enerji strategiyası təkcə ölkəmiz üçün deyil, region və Avropa üçün də faydalıdır. Bakı Enerji Həftəsi dünya miqyasında enerji təhlükəsizliyi və istehsalı, yeni mənbələrin istifadəyə verilməsi, xüsusilə də "yaşıl enerji" sektorunun inkişafı ilə bağlı vacib məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələrin cəlb edildiyi tədbirdir".

Məlahət İbrahimqızı vurğulayıb ki, Prezident İlham Əliyev enerji siyasətinin nə qədər önəmli olduğunu beynəlxalq müstəvidə, bütün diplomatik istiqamətlərdə bəyan edir: "Müasir dövrümüzdə enerji siyasəti ölkələrarası strateji əməkdaşlığı müəyyənləşdirən rola malikdir. Elə bu fakt da Bakı Enerji Həftəsinin qlobal əhəmiyyətindən xəbər verir. Danılmaz faktdır ki, bu platforma ölkəmizə yeni dividendlər qazandırır, Azərbaycanın xüsusilə Vətən müharibəsindən sonra artan beynəlxalq nüfuzunu daha da yüksəldir. Prezident İlham Əliyev iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində sərgilərin rəsmi açılış mərasimində bu barədə deyib: "Xəzər neft və qaz sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu toplantı daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, "yaşıl enerji"ni əhatə edib".

Deputatın sözlərinə görə, uğurla başa çatan Bakı Enerji Həftəsi bir daha Azərbaycanın uğurlarını dünyaya təqdim etdi. Bu tədbir sübuta yetirdi ki, uzun illər neft və qaz sahəsindəki aktiv fəaliyyəti ilə seçilən Azərbaycan bu gün həm də "yaşıl keçid"in mühüm iştirakçısıdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycanın enerji siyasəti əməkdaşlığa, təhlükəsizliyə, qarşılıqlı etimada və etibara əsaslanır

**Bu gün karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması, eləcə də Şimal marşrutu üzrə enerji axınında yaranmış çətinliklər fonunda Azərbaycanın strateji mövqeyinin artması danılmaz reallığa çevrilib. Bu mövqenin sabit və davamlı olmasının əsas səbəbi isə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" və onun uğurlu icrası faktıdır.**

Məhz bu müqavilə ilə xarici investisiyanın ictimai-siyasi sabitlik əldə etmiş Azərbaycana yatırılması, neft-qaz sənayesinin pay bölgüsü əsasında işlənməsi ümumilikdə Azərbaycan iqtisadiyyatında və sənayesində yeni bir eranın başlanğıcı oldu. Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Amid Əliyev söyləyib.

İkinci Qarabağ müharibəsində Zəfər qazanan Azərbaycanın xarici diplomatiyasının əsas istiqamətinin məhz enerji siyasəti olduğunu deyən politoloq bildirib: "İlkin olaraq "Cənub qaz dəhlizi"nin istismara verilməsi ilə Azərbaycan Avropanın, xüsusilə də Cənub-Şərqi Avropanın bir sıra qabaqcıl dövlətlərinin enerji tədarükçüsünə çevrildi. Bu eyni zamanda NATO kimi siyasi-hərbi ittifaqa üzv olan dövlətlərlə yeni enerji müstəvisində əməkdaşlıq platforması kimi qiymətləndirilə bilər. Artıq Avropa İttifaqının (Aİ) 9 üzv ölkəsi ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb, digər dövlətlərin isə bu platformada pay sahibi olmaları üçün səy göstərdiklərini görürük.

XXI əsrdə enerji siyasətinin dövlətlərin milli təhlükəsizlik prizmasından qiymətləndirildiyi bir zamanda Azərbaycanın ən ideal təminatçı olması artıq Aİ-nin yüksək tribunalarında aparıcı diplomatlar tərəfindən dəfələrlə səsləndirilib. 2022-ci il iyulun 18-də Bakıda imzalanan Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu zamanı Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin "Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq" fikrini səsləndirməsi bunun bariz nümunəsidir".

O vurğulayıb ki, Azərbaycan tərəfindən həyata keçirilən enerji siyasəti həm də regional əməkdaşlığın və təhlükəsizliyin qarantı kimi ifadə olunur. ABŞ Prezidenti Cozef Baydenin 28 May - Müstəqillik Günü münasibətilə dövlətimizin başçısına ünvanladığı məktubunda "Diplomatik əlaqələrimizin 30 ildən artıq bir dövründə biz enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorçuluqla mübarizə də daxil olmaqla birgə maraqlara söykənən tərəfdaşlıq qurmuşuq. Hər iki ölkəmiz Əfqanıstanda çiyin-çiyinə döyüşmüş və birlikdə "Cənub qaz dəhlizi"ni inkişaf etdirməklə regional enerji təhlükəsizliyi ilə bağlı çağırışlara sinə gərmişdir" fikirlərini qeyd etməsi Azərbaycanın bu sahədə regional güc olmasına açıq işarədir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın enerji siyasəti əməkdaşlığa, təhlükəsizliyə, qarşılıqlı etimada və etibara əsaslanır. Ötən illər ərzində Azərbaycan özünün enerji tərəfdaşları ilə imzaladığı bütün müqavilələrə tam şəkildə sadiq qalıb. Regionda, eləcə də bölgədən kənarda baş verən siyasi, iqtisadi və hərbi proseslər isə bu etimada təsir edə bilməyib. Məhz bunun nəticəsidir ki, Ərəbistan yarımadası, Mərkəzi Asiya, Avropa və Uzaq Şərq kimi böyük bir coğrafiyada yerləşən dövlətlər öz enerji tələbatlarının ödənilməsində tərəfdaş kimi Azərbaycanı seçirlər. Bu da ölkəmizin nəinki regional, hətta beynəlxalq yeni siyasi imicinin formalaşması prosesi kimi dəyərləndirilməlidir.

"Yeni əsrin birinci dekadasında Azərbaycan bölgədə siyasi iradəsi və hərbi qüdrəti olan dövlət kimi tanınmaqla yanaşı, etibarlı enerji təminatı mərkəzi kimi də vacib ad qazanıb. Bu da Azərbaycanın yeni dünya nizamında qlobal səviyyədə siyasi və iqtisadi maraqlarının davamlı olmasına xidmət edəcək", - deyə A.Əliyev diqqətə çatdırıb.

## "Bakı Enerji Həftəsi çox yüksək səviyyədə təşkil olunub"

**"Mən artıq ikinci dəfədir ki, bu tədbirdə iştirak edirəm və təmsil etdiyim şirkət mütəmadi olaraq sərgiyə qatılır".**



Bunu AZƏRTAC-a Bakı Enerji Həftəsində iştirak edən ABŞ-nin "National Oilwell Varco" (NOV) şirkətinin nümayəndəsi Klaus Meyer (Claus Meyer) deyib.

Ofislərinin ABŞ-nin Texas ştatının Hyuston şəhərində yerləşdiyini deyən Klaus Meyer Azərbaycandakı ofislərinin üç müəssisədən ibarət olduğunu vurğulayıb.

"Burada 200-ə yaxın işçi çalışır. Biz neft və qaz sahəsində istifadə olunan avadanlığın istehsalı ilə məşğuluq. Tədbir çox yüksək səviyyədə təşkil olunub. Panel iclasları çox maraqlı keçir", - deyə "National Oilwell Varco" şirkətinin nümayəndəsi qeyd edib.

## "Bakı Enerji Həftəsi insanlarda böyük maraq doğurur "

**"Bu mənim Bakıya ikinci səfərimdir. Bu tədbirin təşkilatçıları ilə yaxından əməkdaşlıq edirəm. Mən artıq bir neçə müxtəlif beynəlxalq sərgilərdə iştirak etmişəm və deyə bilərəm ki, Bakıdakı tədbir çox yüksək səviyyədə təşkil olunub".**




Bunu AZƏRTAC-a Bakı Enerji Həftəsində iştirak edən İrlandiyanın "The Exhebition Guy" şirkətinin direktoru Stiven Mörta deyib.

Bakı Enerji Həftəsində həm sərgi, həm də konfrans formatları birləşdirildiyini deyən Stiven Mörta, adətən, bu cür tədbirlərin bir yerdə keçirildiyini vurğulayıb.

"Bakıdakı tədbiri fərqləndirən cəhəti odur ki, sərgi və konfrans iki müxtəlif yerlərdə keçirildi. Məlumdur ki, həm sərgi, həm konfrans insanlarda böyük maraq doğurur. Zənnimcə, konfransda keçirilən panel iclasları bu sahədə çalışan insanları bir araya gətirmək, onların fikirlərini dinləmək və çıxış yolları tapmaq baxımından olduqca zəruridir", - deyə İrlandiya şirkətinin direktoru qeyd edib.




## *Muxtar BABAYEV:* "Azərbaycan COP29-a ciddi şəkildə hazırlaşır"

**"Azərbaycan COP29-a ciddi şəkildə hazırlaşır və bu gün Bonnda müvafiq sənədlərin imzalanması həyata keçirildi. Ölkə üzrə yaxın gələcəkdə böyük müqavilənin də bağlanması gözlənilir. Hazırda Azərbaycan tərəfi tədbir yerinin hazırlanması, iştirakçıların yerləşdirilməsi, təhlükəsizlik, protokol və s. olmaqla kompleks məsələlər üzərində böyük komanda ilə iş aparır. Bu istiqamətdə böyük siyasi dəstək də mövcuddur".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan mediası üçün açıqlamasında deyib.

M.Babayev bildirib ki, BMT-nin İqlim Dəyişmələri Konfransı COP29-a gedən yolda çox önəmli bir hadisədir. Hər gün burada keçirilən onlarca görüş və toplantılar, müxtəlif komitələrdə aparılan iclaslar, plenar sessiyalarda iştirak və çıxışlarda Azərbaycanın COP29-a hazırlığı və danışıqlar prosesində mövqeyi təqdim olunur, eləcə də hüquqi və texniki xarakterli bir çox suala cavab axtarılır.

Qeyd edilib ki, Bonn konfransında danışıqlar prosesində yaxından iştirak Azərbaycan nümayəndə heyətlərinin öz səriştəsini göstərmək üçün yaxşı imkandır. Çünki konfransda ciddi danışıqlar prosesi gedir, bu prosesə peşəkar ekspertlər cəlb olunub. Qarşıda danışıqlar prosesi üçün bir neçə aylıq müddət var, bütün bu toplanan təcrübə Azərbaycan tərəfinə imkan verəcəkdir ki, COP29-da danışıqlar prosesini uğurla həyata keçirə bilsin.

## *Yalçın RƏFİYEV:* "Bakıda təşkil olunacaq COP29 indiyədək keçirilmiş COP-lar arasında ən uğurlu tədbirlərdən biri olacaq"

**"BMT-nin İqlim Dəyişmələri üzrə COP29-a hazırlığın ən önəmli mərhələlərindən biridir. Azərbaycan burada nümayəndə heyəti ilə tam tərkibdə iştirak edir. Hər il iyun ayında keçirilən Bonn sessiyası bu il rekord sayda iştirakçı sayı ilə yadda qalır. Bu da öz növbəsində COP29-a marağın böyük olacağını göstərir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib. Qeyd edilib ki, sessiyada artıq Bakıda qəbul olunacaq sənədlərin ilkin layihələri ətrafında danışıqlar prosesi başlayıb. Həm Azərbaycan, həm də digər dövlətlər tərəfindən paralel iclaslar keçirilir, eyni zamanda plenar zalda gündəlikdən irəli gələn mövzularla bağlı böyük tədbirlər baş tutur.

Nazir müavini diqqətə çatdırıb ki, ümumilikdə beynəlxalq iqlim ictimaiyyəti arasında Azərbaycanın COP29-a evsahibliyinə böyük gözləntilər var. Hamı Bakıdakı COP29-un indiyədək keçirilmiş COP-lar arasında ən uğurlularından biri olacağını düşünür və bu istiqamətdə də kifayət qədər əsaslı səbəblər mövcuddur. Çünki Bakıda iqlim maliyyəsi müzakirəyə çıxarılacaq, bununla bağlı dövlətlərin ən böyük gözləntisi 2009-cu ildə Kopenhagendə qəbul olunmuş Böyük Maliyyə Hədəfinin 15 ildən sonra yeni rəqəmlər əsasında müəyyənləşdirilməsidir.

Bu istiqamətdə də Azərbaycan digər dövlətlər və tərəfdaşlarla danışıqlar aparır, Bonn konfransı bu baxımdan Azərbaycan üçün mühüm bir hadisədir.

# COP29 tarixə həm də dünyada sülhə, əmin-amanlığa xidmət edən tədbir kimi yazılacaq

**COP29-un Azərbaycanda keçirilməsini ilk növbədə BMT tərəfindən Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi və beynəlxalq aləmdə qazandığı uğurların nəticəsi kimi qiymətləndirmək olar. Bundan əlavə, COP29-un Azərbaycanda keçirilməsi ölkədə siyasi və iqtisadi sabitliyin hökm sürməsindən xəbər verir. Bütün dünyaya məlumdur ki, Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi barədə yekdil rəy beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük ehtiramın və dəstəyin ifadəsidir. Bu həm də Azərbaycan rəhbərliyinin qlobal miqyasda uğurlu diplomatiyasının nəticəsi və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. COP29-da demək olar ki, dünyanın bütün ölkələrini təmsil edən 70-80 min qonağın iştirakı proqnozlaşdırılır. Bu da tədbirin misli görünməmiş qlobal miqyasının göstəricisidir.



Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ölkəmizin 2024-cü ildə evsahibliyi etmək üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti beynəlxalq qələbəsidir. Bu, dövlət başçısının xarici siyasətdə ən böyük uğurlarındandır. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi ölkələrə və beynəlxalq dairələrə layiqli cavabdır. Bu mühüm tədbirin keçirilməsi ilə əlaqədar olaraq ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı mübarizəyə yeni töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq.

Hazırda bu mötəbər tədbirin yüksək səviyyədə keçirilməsi üçün çox ciddi hazırlıq işləri görülür. Aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum məsələnin vacibliyi barədə geniş fikir mübadiləsi aparmaq üçün önəmli platforma oldu. Forumda dünyanın müxtəlif nüfuzlu beyin mərkəzlərinin nümayəndələri iştirak edirdilər. Prezident İlham Əliyev ADA Universitetində keçirilən beynəlxalq forumda ölkəmizin qazandığı uğurların səbəblərindən ətraflı danışdı. Dövlətimizin başçısı dedi ki, ölkəmiz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmayıb, hər zaman İran, Rusiya, Gürcüstan və Avropa, həmçinin qardaş Türkiyə ilə münasibətlərində ədalətli olub. Azərbaycanın uğurunun səbəbi də məhz bundadır.

İyunun 3-də COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib. Qeyd olunub ki, Prezident İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir. Samir Nuriyev ötən aylar ərzində COP29 komandası tərəfindən müxtəlif danışıqlar qrupları ilə görüş və məsləhətləşmələrin keçirildiyini, Azərbaycanın müzakirə olunan mövzular ətrafında qlobal həmrəyliyin və konsensusun formalaşdırılması istiqamətində çalışdığını vurğulayıb. Bildirib ki, artıq ölkəmiz COP29 sədrliyinin fəal fazasına daxil olur və dövlət qurumları COP29-un uğurla keçirilməsi üçün səylərini daha da artırmalıdır.

COP29-un Bakıda keçirilməsi qərarı həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Buna uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasının bünövrəsini qoyub. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir.

Hələ 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru, Naxçıvanı "yaşıl enerji" bölgəsi adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmiz ümumilikdə "yaşıl enerji" istehsalçısına və istehlakçısına çevrilə bilər. Artıq Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından fəal şəkildə istifadə edilir.

COP29 Azərbaycanda həm də turizmin inkisafı üçün geniş imkanlar açacaq. Çünki dünyamız üçün mühüm olan bir tədbirin keçirildiyi günlərdə ölkəmizə çoxsaylı xarici qonaqlar gələcək. Həmin günlərdə dünyanın diqqəti Azərbaycana yönələcək. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasında ölkəmizin planetin gələcəyini düşünən məsuliyyətli bir diyar olduğunu bütün dünyaya aydın şəkildə göstərəcək. Ümumilikdə isə, COP29-a evsahibliyi etmək Azərbaycan üçün ekoloji təşəbbüsləri nümayiş etdirmək, eləcə də iqlim dəyişikliyi, davamlılıq və biomüxtəlifliyin qorunması ilə bağlı qlobal müzakirələrə töhfə verəcək. Ən nəhayət, COP29-un Azərbaycanda keçirilməsi həm ölkə, həm də dünya üçün bir çox müsbət nəticələrlə yadda qalacaq. Yadda qalan bu uğurlu nəticələr isə daim ölkəmizə başucalığı gətirəcək. Azərbaycan Prezidenti İlham Əliyevin praqmatik xarici siyasət kursu və uzaqgörən diplomatiyası sayəsində COP29 tarixə həm də dünyada sülhə dəstək baxımından yüksək nəticələrə malik böyük əhəmiyyətli beynəlxalq tədbir kimi yazılacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Misir COP29-da fəal iştirak etməyi səbirsizliklə gözləyir

**"Misir COP29-da fəal iştirak etməyi səbirsizliklə gözləyir." "Trend" xəbər verir ki, bu barədə Misirin beynəlxalq əməkdaşlıq naziri vəzifəsini icra edən Rania Al-Maşat jurnalistlərə deyib. "COP-un keçirilməsi çox mühüm hadisədir, çünki iqlimlə əlaqəli qlobal hədəflərə nail olmaq üçün hansı həcmdə maliyyələşdirməyə ehtiyac olduğunu və beynəlxalq əməkdaşlığı hansı istiqamətdə qurmaq lazım olduğunu nümayiş etdirməyə imkan yaradır" - Rania Al-Maşat Misirdə bu sahədə bir çox istiqamətin araşdırıldığını qeyd edib.**



"Bunlardan biri İtki və Zərər Fondudur və fikrimcə, bu istiqamətdə fəaliyyət COP29-da davam etdiriləcək. İkincisi ölkə platformalarıdır. Bundan başqa, ölkələrimiz üçün prioritet olan layihələri həyata keçirə bilmək üçün konsessiya və maliyyələşdirməni səfərbər etməyə çalışırıq. Məqsədlərimizə nail olmaq iqtidarında olduğumuzdan əmin olmaq üçün beynəlxalq maliyyə institutları, çoxtərəfli inkişaf bankları ilə necə fəaliyyət göstərməli olduğumuzu müəyyən etməliyik", - deyə o əlavə edib.

Onun sözlərinə görə, Afrikanın emissiyalarda payı qlobal miqyasda ən azı 4 faizdir, lakin irəli sürülən tələblər daha böyük həcmdə güzəştli maliyyələşdirməyə ehtiyac olduğunu göstərir.

"Bu səbəbdən COP29-da fəal iştirak etməyi səbirsizliklə gözləyirik. Azərbaycan xalqını COP-a evsahibliyi münasibətilə təbrik edir və onlara bu son dərəcə mühüm konfransda uğurlar arzulayırıq", - deyə o sonda qeyd edib.

## Beynəlxalq QHT-lər COP29-a böyük maraq göstərirlər

**Bonn şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri Konfransında dövlət və hökumət təmsilçiləri, beynəlxalq təşkilatlarla yanaşı, qeyri-hökumət təşkilatları da əsas iştirakçı seqmentini təşkil edir və onlar arasında Azərbaycanın evsahibliyi edəcəyi COP29-a böyük maraq mövcuddur. Onlar Bakıda qlobal diskussiyalara - COP29-a ciddi hazırlaşırlar və Azərbaycandan olan tərəfdaşları ilə yaxından əməkdaşlıq qurmağa çalışırlar.**

AZƏRTAC xəbər verir ki, aparılan söhbətlər zamanı xarici QHT-lər Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəsini yüksək qiymətləndirib, COP29-un sədri kimi ölkəmizə yüksək etimad göstərdiklərini, onları narahat edən mövzular üzrə uğurlu danışıqlar aparılacağına inandıqlarını bildiriblər. Onlar həmçinin Bakı Enerji Həftəsini yaxından izlədiklərini, Azərbaycanın yaşıl düşüncə əsasında yürütdüyü yeni enerji siyasətini yüksək dəyərləndiriblər.

Bildirilib ki, iqlim dəyişmələri gündəlik həyatımızın bütün sahələrinə təsirini göstərir və vətəndaş cəmiyyəti bu proseslərə biganə qalmır. Ətraf mühit, iqlim maliyyəsi, gənclər, səhiyyə və digər sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları iqlim icmasının mühüm tərkib hissəsi kimi COP29-da müxtəlif mövzuların müzakirəsində fəal iştirak edəcəklər.

Nyu York Universitetinin professoru Corc Terson bildirib ki, COP29-u səbirsizliklə gözləyir, çünki sağlamlıq məsələlərini iqlimlə bağlı danışıqlarda müzakirəyə çıxarmaq niyyətindədir. O, COP29-da öz araşdırmalarından, havanın çirklənməsinin insan sağlamlığına vurduğu zərər barəsində yeni elmi araşdırmalar əsasında hazırlanan misallar təqdim etmək istəyir və Bakıya səfərinə böyük ümidlər bəsləyir. Çünki iqlim dəyişikliklərinə diqqət artırılsa və havanın çirklənməsinin qarşısı alınsa, dünyada insanların sağlamlığına müsbət təsir göstərmək mümkün olacaq.

Qlobal Hüquq Fikirləri Cəmiyyətinin təsisçisi və prezidenti Raoman Smita Azərbaycanda keçiriləcək COP29-la bağlı gözləntilərinin böyük olduğunu deyib. O, ümidvar olduğunu bildirib ki, Azərbaycan və digər iştirakçı ölkələr iddialı iqlim planlarına, icra edilə bilən tədbirlərə diqqət yetirəcəklər və Paris Sazişi ilə uzlaşmaq üzərində işləyəcəklər. Digər QHT-lərin təmsilçiləri də Bakıda keçiriləcək COP29 çərçivəsində öz sahələri üzrə mövzuları diqqət mərkəzində saxlayacaqlarını, müzakirələrdə fəal şəkildə iştirak edəcəklərini deyiblər. Onlar dünyanın ən böyük beynəlxalq tədbirlərindən biri olan COP-u qəbul etdiyinə, danışıq və müzakirələrin Bakıda aparılmasına imkan yaratdığına görə Azərbaycana minnətdarlıqlarını bildiriblər.

# COP29 Azərbaycanın iqlim dəyişikliyi və davamlı inkişaf üzrə qlobal dialoqdakı rolunu daha da möhkəmləndirəcək

**"Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində çıxışı Azərbaycanın milli inkişaf modelinin, strategiyasının uğurlarını və gələcək vizyonunu bir daha aydın görməyə imkan verdi.**

Prezident İlham Əliyev çıxışında Azərbaycanın son üç onillikdəki transformasiyasını detallı izah etdi, onun yeni müstəqillik qazanmış və böhrana məruz qalmış ölkədən regional enerji mərkəzinə çevrilməsi yolu təhlil olundu". Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimli səsləndirib.

O bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən enerji strategiyası Azərbaycanın dayanıqlı iqtisadi tərəqqisini təmin etməklə yanaşı, həm də ölkəmizin Avropanın etibarlı qaz tədarükçüsü olmasına, qitənin enerji təhlükəsizliyinə töhfə vermısinə imkan yaradıb. Məhz zamanla ayaqlaşan, çağırışlara vaxtında adekvat cavablar verən Azərbaycanın enerji strategiyası milli inkişaf modelinin möhkəm bünövrəsi oldu. Xüsusilə Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan indi əldə olunmuş nailiyyətlərə söykənərək iqlim dəyişikliyi probleminin həlli və "yaşıl enerji"yə keçid prosesində yaxşı start şərtlərinə malikdir.



Ekspert diqqətə çatdırıb ki, Azərbaycan daim gələcəyə baxmaq ənənəsinə sadiq qalaraq özünün bərpaolunan enerji potensialını əhəmiyyətli dərəcədə genişləndirməyi qarşısına məqsəd qoyub. Prezident Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti kimi beynəlxalq tərəfdaşlarla birgə günəş və külək-elektrik stansiyalarının tikintisi planlarını açıqlayaraq enerji strategiyasının yeni şərtlərlə uğurlu adaptasiyasını nümayiş etdirdi. Qarabağ və Şərqi Zəngəzurdakı su-elektrik stansiyası layihələrindən yaranacaq əlavə potensialla 2027-ci ilədək 2 qiqavat bərpaolunan enerjiyə nail olmaq, azad edilmiş ərazilərin "yaşıl iqtisadiyyat"a keçid planlarına uyğun bərpası məqsədlərdən biridir. Azərbaycan həmçinin iqlim dəyişikliyi məsələlərinin həllinə və "yaşıl enerji"yə keçidə sadiqliyini nümayiş etdirərək COP29-u yüksək səviyyədə keçirmək niyyətindədir. Dövlətimizin başçısı konkret nümunələrlə ölkəmizin "qara qızılı" insan kapitalına çevrilməsi yolunda necə irəlilədiyini bir daha diqqətə çatdırdı.

Z.İbrahimli vurğulayıb ki, Prezident İlham Əliyev bir daha Azərbaycanın tarixi Qələbə qazandığı 44 günlük Vətən müharibəsindən sonra yaranmış imkanlardan məhz dinc məqsədlər, "yaşıl iqtisadiyyat"a keçid, ətraf mühitin qorunması potensialının yüksəldilməsi üçün istifadə etdiyini bildirdi. Bununla da Azərbaycanın məsuliyyətli, iqlim dəyişikliklərinə həssas siyasət yürütdüyünü vurğuladı.

"Prezident İlham Əliyevin çıxışı bir daha göstərdi ki, Azərbaycan 2027-ci ilədək günəş və külək enerjisi sahəsində 2 qiqavat gücünə nail olmaq məqsədilə bərpaolunan enerji sahəsində əsaslı irəliləyişlərə imza atmağa hazırdır. Qaz ixracının artırılması və enerji mənbələrinin şaxələndirilməsi ilə Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini davam etdirəcəyi açıq-aydın görünür. COP29-a evsahibliyi etmək Azərbaycanın iqlim dəyişikliyi və davamlı inkişaf üzrə qlobal dialoqdakı rolunu daha da möhkəmləndirəcək. Bu nailiyyətlər Azərbaycanın enerji təhlükəsizliyini, iqtisadi sabitliyini gücləndirəcək və beynəlxalq nüfuzunu artıracaq", - deyə QHT sədri əlavə edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ



## 21 ölkə sırasında

### Azərbaycan üçüncü dəfə BMT-nin İqtisadi və Sosial Şurasının üzvü seçilib

**Ölkəmiz BMT Baş Assambleyası tərəfindən bu qurumun İqtisadi və Sosial Şurasına üçüncü dəfə üzv seçilib. Azərbaycan üzvlük haqqını rəqabətli səsvermədə 148 səslə qazanıb və beləliklə, 2025-2027-ci illər üzrə şuranın üzvü olacaq. Azərbaycanla yanaşı, daha 20 ölkə həmin şuraya üzv seçilib.**

Əvvəla xatırladaq ki, Azərbaycan 32 ildən çoxdur BMT-nin üzvüdür. BMT Baş Məclisinin 46-cı sessiyasında ölkəmizin bu təşkilata üzv seçilməsi tarixi hadisə idi. Çünki bu, xalqımızın müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi baxımdan tanınmasını göstərirdi. Ulu Öndər Heydər Əliyev BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdə bu kontekstdə belə demişdir: "Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik". Ümummilli Liderimiz Azərbaycan-BMT münasibətlərinə xüsusi əhəmiyyət verirdi. Heydər Əliyevin 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin iclasında söylədiyi nitqində də Azərbaycanın dünya birliyinə münasibətdə yeridəcəyi siyasətin başlıca prinsipləri ifadə olunmuşdu.

Prezident İlham Əliyev Azərbaycan-BMT münasibətlərinə yeni dinamika vermişdir ki, bunun da müsbət nəticələri göz qabağındadır. Ölkəmizin üçüncü dəfə BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi də məhz bunları təsdiq edir. Bundan əvvəl də iki dəfə - ilk dəfə 2003-2005-ci illərdə, növbəti dəfə isə 2017-2019-cu illərdə bu şuranın üzvü olmuşduq.

Qeyd edək ki, İqtisadi və Sosial Şura BMT-nin 6 əsas orqanından biridir. Şura 1945-ci il iyunun 26-da yaradılıb və BMT Nizamnaməsinə əsasən, qurumun 15 ixtisaslaşmış təşkilatının, 9 funksional və 5 regional komissiyalarının iqtisadi və sosial sahədə fəaliyyətlərini əlaqələndirir.

Şura yaşayış səviyyəsinin yaxşılaşdırılması və əhalinin tam məşğulluğu daxil olmaqla iqtisadi və sosial tərəqqinin təşviqi ilə məşğul olur. İqtisadi və sosial sahələrdə, eləcə də səhiyyə sahəsində beynəlxalq problemlərin həlli yollarının inkişafına dəstək verir. Mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığı təşviq edir. Həmçinin insan hüquqlarına və əsas azadlıqlarına ümumi hörmət üçün şəraitin yaradılması şuranın diqqət mərkəzindədir. Lazım gəldikdə BMT-nin bu orqanı humanitar fövqəladə hallar üçün müvəqqəti iclaslar çağırmaq səlahiyyətinə də malikdir.

Şuranın rəyasət heyəti isə fəaliyyət dairəsinə daxil olan mövzularda araşdırma aparır, hesabatlar dərc edir. İqtisadi və sosial problemlərə dair beynəlxalq konfransların hazırlanmasına və təşkilinə, bu tədbirlərin qərarlarının icrasına kömək edir. Şuranın hər illik iclasının əvvəlində İqtisadi və Sosial Şuranın Rəyasət Heyəti seçilir.

Ölkəmizin bu şuraya üzv seçilməsi sosial-iqtisadi sahədə qazandığımız nailiyyətlərin dünyada təqdir edilməsinin növbəti təzahürüdür. İndi Azərbaycan mötəbər bir tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsindədir. Bu günlərdə Almaniyanın Bonn şəhərində artıq COP29 sədrliyi və UNFCCC arasında rəsmi məktub mübadiləsinin imzalanma mərasimi də keçirilib. Beləliklə, Azərbaycanın rəsmən COP29-un sədri vəzifəsinin icrasına başlaması ilə yanaşı, BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu bir daha təsdiq edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Naxçıvan MR-də 11,3 min pensiya, müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə işlər nəticəsində muxtar respublikada da ötən ildən sosial ödənişlərin proaktiv təyinatı həyata keçirilir.**

Muxtar respublikada artıq 11,3 min pensiya, müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb. Beləliklə, həmin sosial ödənişlər onları almağa hüququ yaranmış şəxslərin müraciətinə və sənəd təqdim etmələrinə ehtiyac qalmadan proaktiv qaydada təyin edilib.

Naxçıvan MR-də də artıq e-sosial.az portalı üzərindən pensiya barədə məlumat ala bilmək, e-arayışlar əldə etmək və s. e-xidmətlərdən istifadə imkanları yaradılıb. Həmçinin son günlər "Ünvanlı yardım" e-sisteminin yenidən qurulması nəticəsində sosial yardım üçün müraciət proseduru təkmilləşdirilib. Bunun nəticəsi olaraq, muxtar respublikanın sakinləri də ünvanlı yardım üçün müraciət edərkən "Ərizə-bəyannamə"də bir çox məlumatın qeyd edilməsi tələb olunmur və bu məlumatlar e-sistem tərəfindən müvafiq qurumların informasiya sistemlərindən əldə edilir.

## "DOST EVİ"ndə həssas qruplara aid 30-dək şəxs təlimlər vasitəsilə bacarıqlarını inkişaf etdirir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialında (İsmayıllı) hazırda əlilliyi olan və digər həssas qruplara aid 30-dək şəxs təlimlər vasitəsilə yaradıcılıq bacarıqlarını inkişaf etdirir.**

Ötən ilin noyabr ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "DOST EVİ" filialının açılışı olub.

Müəssisədə bölgədə yaşayan əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri və digər həssas qrupların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək işləri aparılır.

Benefisiarlar dulusçuluq, bədii oyma, dərzilik, xalçaçılıq, un məmulatları emalatxanalarında həmin istiqamətlərdə bacarıqlarını, peşə vərdişlərini təkmilləşdirirlər. Filialda 10 təlim istiqaməti üzrə 6 emalatxana fəaliyyət göstərir.

Mərkəzə benefisiarların seçimi Qiymətləndirmə Komissiyası tərəfindən aparılır və hazırda "DOST EVİ"nə qəbul prosesi davam edir. Təlimçilər və digər işçilər də əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri və digər həssas qruplar arasından seçilir.

Təlim müddətini uğurla başa vuran şəxslərə sertifikatlar veriləcək.



## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları artıb

**Cari ilin yanvar-may aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) xətti ilə dövlət büdcəsinə 7,5 milyard manata yaxın vergi daxil olub.**

DVX-nin məlumatına görə, dövlət büdcəsinə proqnozdan əlavə 1 milyard manatdan çox vəsait ödənilib. Qeyri-neft-qaz sektorundan daxilolmalar isə 5,2 milyard manatdan çox olub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 634,7 milyon manat və ya 13,8 faiz artıb.

Ödənilən vergilərin 69,9 faizi qeyri-neft-qaz, 30,1 faizi neft-qaz sektorlarının payına düşüb.

## "S&P Global Ratings" Azərbaycanın reytinqlərini təsdiqləyib

**"S&P Global Ratings" Azərbaycanın xarici və milli valyutada "BB+/B" səviyyəsində uzunmüddətli və qısamüddətli suveren kredit reytinqlərini təsdiqləyib. "Trend" bu barədə şirkətin məlumatlarına istinadən xəbər verir. Agentliyin məlumatlarına əsasən, reytinqlər üzrə proqnoz sabit olaraq qalır.**




"S&P Global Ratings" Azərbaycanın 2024-2027-ci illər ərzində büdcə və cari əməliyyatlar hesabının ikiqat profisitini qoruyub saxlayacağını proqnozlaşdırır ki, bu da ixracın 80 faizini təşkil edən karbohidrogenlərin qiymətlərinin əlverişli olmasına imkan yaradacaq.

Sabit proqnoz agentliyin Azərbaycanın mühüm fiskal və xarici ehtiyatlarının iqtisadiyyatı ticarət şərtlərindəki dəyişikliklərlə əlaqəli mümkün şoklardan qorumağa kömək edəcəyinə dair gözləntilərini əks etdirir.

Qeyd olunur ki, geosiyasi risklər azalacağı və əlavə fiskal ehtiyatlar toplanacağı təqdirdə reytinqlər artırıla bilər.

## "ƏDV-ni geri al" layihəsi özünü doğruldur

**"ƏDV-ni geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.**

Bu ilin yanvar-may aylarında Azərbaycanın pərakəndə ticarət və iaşə obyektlərindən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də səhiyyə müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 74,02 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

Bundan başqa, ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin sözügedən layihə çərçivəsində qaytarılan həcmi yanvar-may aylarında 8 milyon 169,2 milyon manat olub.

## 2,5 milyard dollarlıq müsbət saldo

### Xarici ticarətdəki bu nəticə iqtisadi inkişafın göstəricisidir

**Dünyada baş verən məlum geosiyasi proseslərin qlobal iqtisadiyyata mənfi təsiri davam edir. Dövlətlərin bir-birlərinə qarşılıqlı sanksiyaları qlobal ticarət zəncirində qırılmalara səbəb olur. Ticarətin aşağı düşməsi isə öz növbəsində istehsalın azalmasına gətirib çıxarır ki, onun da fəsadları bütün dünya üzrə sosial-siyasi durumu gərginləşdirir.**




Bəzi ölkələrdə iqtisadi artım müşahidə edilsə də, beynəlxalq maliyyə qurumlarının bir çoxunun hesabatlarında geriləmə olacağı barədə bədbin proqnozlar verilir. Və ən pisi də odur ki, dünyada baş verən bu gərginliyin nə vaxtadək davam edəcəyi məlum deyil. O üzdən də qarşıdakı illər üçün dəqiq hesabatlar hazırlamaq mümkün olmur.

İndi müşahidə edilən bir məsələ də ondan ibarətdir ki, bu gün dünyada ərzağa tələbat çoxalır ki, bu da həmin məhsulların qiymətlərini yüksəldir. Bu səbəbdən aqrar sektor tədricən gəlirli sahəyə çevrilir, qlobal səviyyədə aqrar sektora kapital qoyuluşunun həcmi artır. Aydın məsələdir - investorlar sərmayəni gəlirli sahələrə yönəltməyə üstünlük verirlər.

Dünyada baş verən hazırkı neqativ proseslərin ən çox təsir göstərdiyi sahələrdən biri də bank-maliyyə sektorudur. Səbəb yenə də ölkələrin bir-birinə tətbiq etdiyi sanksiyalar və qeyri-müəyyən geosiyasi gərginliyin davam etməsidir. Odur ki, bir çox sahənin maliyyələşməsi aşağı düşür və ya tam dayanır. Belə hal öz növbəsində beynəlxalq səviyyədə istehsal və ticarətə də mənfi təsir göstərir.

Dünyanın belə çətin bir vaxtında ölkəmizin iqtisadiyyatında, o cümlədən xarici ticarətində müsbət dinamika var. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-mart aylarında ölkəmizdəki hüquqi və fiziki şəxslər dünyanın 149 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. 93 ölkəyə məhsul ixrac olunub, 144 ölkədən isə idxal edilib.

Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin birinci rübündə xarici ticarət dövriyyəsinin dəyəri 9 milyard 905,5 milyon, o cümlədən ixracın dəyəri 6 milyard 193,9 milyon, idxalın dəyəri 3 milyard 711,6 milyon dollar olub. Nəticədə 2 milyard 482,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumata görə, yanvar-mart aylarında xarici ticarət dövriyyəsinin 88,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Hindistan, Almaniya, Tailand, Gürcüstan, ABŞ, Bolqarıstan, İran, Tunis, Rumıniya, Çexiya, Fransa, Portuqaliya, Ukrayna, Belarus, Türkmənistan və Polşa ilə aparılıb.

Hesabat dövründə idxal məhsullarında maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, mineral məhsulların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil edib. Bu aylar ərzində ölkəyə gətirilən məhsulların bir çoxunda ötən ilin eyni dövrü ilə müqayisədə azalma müşahidə olunub ki, bunun da başlıca səbəbi yerli istehsalın artması ilə bağlıdır.

İxracda isə əsas partnyorlarımız İtaliya, Türkiyə, İsrail, Hindistan, Almaniya, Gürcüstan, Bolqarıstan, Tunis, Portuqaliya, Rumıniya, Çexiya, Yunanıstan, Polşa, Fransa, İndoneziya, Xorvatiya, İspaniya, Ukrayna, Qırğızıstan, İsveçrə və Türkmənistandır.

Hesabat dövründə ixracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsulları, meyvə-tərəvəz, plastik kütlə və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, pambıq lifi və ipliyi, alüminium və ondan hazırlanan məmulatlar, bitki yağlarının, şəkərin payı üstün olub.

Göründüyü kimi, ölkəmizin xarici ticarət əlaqələrində müsbət saldo davam edir. Müəyyən məhsullar üzrə idxal və ixracda artma və ya azalma müşahidə edilsə də, ümumi göstəricilər yaxşıdır. İndi dünyada baş verən neqativ geosiyasi proseslər dövründə belə nəticələrin olması ölkəmizin dinamik inkişafının göstəricisidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Qeyri-sabit hava şəraiti ilə əlaqədar ASF-yə 800-dən çox müraciət daxil olub

**Ölkədə müşahidə olunmuş qeyri-sabit hava şəraiti nəticəsində təsərrüfatlara və əkin sahələrinə dəyən zərərlər üzrə Aqrar Sığorta Fonduna (ASF) müraciətlər davam edir.**

ASF-nin məlumatına görə, 2024-cü ilin 5 ayında aqrar sahəyə dəyən zərərlər üzrə fonda müraciətlərin sayı 800-ü keçib. Müraciətlərin yarıdan çoxu havaların kəskin dəyişdiyi may ayında qeydə alınıb. Daxil olan müraciətlər əsasən dolu, intensiv yağışlar, sel-subasma, qasırğa kimi hadisələrə aiddir.

Ümumilikdə fermerlər tərəfindən müraciətlər 40-a yaxın rayondan qəbul edilib. Bunlara Qazax, Şəki, Qobustan, Sabirabad, Kürdəmir, Saatlı, İmişli, Ağcabədi, Ağdam, Ağsu, Balakən, Zaqatala, Qax, Beyləqan, Bərdə, Goranboy, İsmayıllı və s. rayonlar aiddir. Müqayisə üçün bildirək ki, ötən ilin eyni dövründə hadisələrlə bağlı müraciətlər təqribən 26 rayondan daxil olmuşdu.

Əkin sahəsinə zərərlə bağlı müraciətlər fondun sığorta təminatı verdiyi bitki məhsullarının əksəriyyətini əhatə edir. Belə ki, müraciətlər arpa, buğda, albalı, gilas, xurma, pambıq, fındıq, alça, badam, şaftalı, nektarin, gavalı, armud, tütün, qoz, ərik, günəbaxan, üzüm təsərrüfatlarına dəyən zərərlə bağlıdır.

Ötən il ümumi müraciətlərin 80 faizi taxıl bitkiləri ilə bağlı olduğu halda, bu il müraciətlərin yarısı bağçılıq və digər bitkiçilik əkinləri üzrədir.

Qeyd edək ki, Aqrar Sığorta Fondu tərəfindən 41 bitki növü üzrə sığorta təminatı verilir.

Fermerlərin təsərrüfatlara dəyən zərər barədə fondun 1651 Çağrı mərkəzinə ən qısa müddətdə məlumat verməyi tövsiyə olunur. Aqrar sığorta qaydalarına əsasən, təsərrüfat sahibləri əkin sahələrinə dəyən zərərlə bağlı 10 gün ərzində Aqrar Sığorta Fonduna məlumat verməlidirlər. Qaydalara əsasən, müraciət daxil olduqdan sonra həmin ərazilərə müstəqil aqrar sığorta ekspertləri təyin edilir, ekspertlər bölgəyə gedərək hadisəni qeydə alır və zərəri ilkin olaraq hesablayırlar. Biçin və məhsul yığımı ərəfəsində aparılacaq yekun qiymətləndirmədə əkin sahəsinə dəyən zərər təkrar dəyərləndirilir, müvafiq sənədlər toplandıqdan sonra yekun rəy əsasında fermerə sığorta ödənişinin verilməsi barədə qərar qəbul edilir.



## Azərbaycan nefti 80,69 dollara satılıb

**Dünya bazarında "Azeri Light" markalı neftin 1 barelinin qiyməti 0,22 dollar, yaxud 0,27 azalaraq 80,69 dollar təşkil edib.**

Hərracların nəticələrinə görə, "Brent" markalı neftin avqust fyuçerslərinin qiyməti isə 78,32 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 dollar), maksimal qiyməti 2008-ci ilin iyulunda (149,66 dollaı) qeydə alınıb.





# Mədəniyyət





**Ziyarətgahlarımız**



## Qədim istehkam və inanc yeri

**Beşbarmaq dağı Bakıdan 95 kilometrlik məsafədə yerləşir. Haqqında çox fərziyyələr var. Adının etimologiyası barədə də fərqli hekayələr deyilib, ehtimallar irəli sürülüb. Qayaya Beşbarmaq adının onun şərq və qərb tərəfdən baxarkən insan əlinin barmaqlarına oxşadığı üçün verildiyi deyilir.**

Belə bir fikir də mövcuddur ki, buranın adı, əslində, Baş Bərmək olub və bu dağlarda yaşamış Bərməki tayfasının adı ilə bağlı yaranıb. Zaman keçdikcə dəyişikliklərə uğrayaraq Beşbarmaq kimi dillərə düşüb. Yazılı mənbələrdə də bir sıra məlumatlar qalır. Belə ki, Məsudinin "Qızıl yuyulan yer və cəvahirat mədənləri" əsərində "Bərməki" adı ilə tanınan daş səddən bəhs olunub. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Quba nahiyəsinin cənubunda yerləşən Bərməki mahalı barədə məlumat verib.

Beşbarmaq dağı xalq arasında "Xızır baba", "Xıdır zində" piri kimi də tanınır. Deyilənə görə, qeyri-adi görünüşə malik olması nəticəsində ətraf ərazilərdə yaşayanlar buranı ibadət yerinə, pirə çeviriblər.

Dağ tektonik hərəkətlərin təsirindən karbonat tərkibli süxurların sıxılması nəticəsində əmələ gəldiyi ilkin versiyalardan biridir. Beşbarmaq dağı ölkəmizin nadir təbiət abidələrindəndir. Ətrafında dövlət mühafizəsinə götürülmüş bir sıra tarix və mədəniyyət abidələri (Son Tunc - İlk Dəmir dövrünə aid yaşayış yeri, Xızırzində piri, İlk Orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları) yerləşir.

Beşbarmaq abidələrində elmi araşdırmalara ötən yüzillikdə başlanılıb. Tərkibinə yerli və xarici alimlərin daxil olduğu ekspedisiya ilk dəfə 1925-ci ildə abidə haqqında geniş məlumatlar toplayıb. Eyni zamanda qala və divarlarının bəzi hissələrinin maraqlı və dəqiq təsvirini veriblər. 1962-ci ildə Beşbarmaq müdafiə tikilişində, Gilgilçay səddində və Çıraqqalada tədqiqat işləri aparan A.Abdullayev hər bir abidə barədə yeni məlumatlar verib. 1980-1985-ci illərdə Tarix İnstitutu tərəfindən yaradılmış Gilgilçay arxeoloji dəstəsi Beşbarmaq abidələrində arxeoloji kəşfiyyat işləri həyata keçirib. Və belə bir elmi təsvir veriblər: "Beşbarmaq səddi əsasən 5 tikinti kompleksindən ibarətdir. Buradakı paralel divarlardan ibarət müdafiə səddinin şimal hissəsindəki divar qalığı Beşbarmaq dağının ətəyindən başlayaraq dənizin sahilinədək davam edir. Səddin divarı əsasən 42x42x14 santimetr, 42x42x12 santimetr ölçüdə çiy kərpicdən tikilib".

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 iyun tarixli müvafiq sərəncamı ilə "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması abidənin hərtərəfli və kompleks tədqiqi üçün yeni imkanlar açıb. 2021-ci il iyulun 1-də Nazirlər Kabineti tərəfindən qoruğun əsasnaməsi təsdiq olunub.

İlk Orta əsrlərə aid Beşbarmaq paralel müdafiə səddi "Xəzər sahili mühafizə konstruksiyaları" daxilində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilib. Belə ki, bura müqəddəs bir məkan kimi əhəmiyyətindən başqa, əslində, Son Tunc - İlk Dəmir dövrünə aid yaşayış yeri, İlk Orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları ilə olduqca əhəmiyyətlidir.

Qoruq ərazisindəki abidələrin tədqiq olunması üçün AMEA-nın bir sıra institutları ilə əməkdaşlıq çərçivəsində elmi-tədqiqat və arxeoloji qazıntı işləri həyata keçirilib. "Beşbarmaq" arxeoloji ekspedisiyası tərəfindən qoruq ərazisində ilk dəfə aparılmış elmi tədqiqatların əsas məqsədi tarixi Beşbarmaq qalasının, onun yaxınlığında yerləşən tarixi qəbiristanlığın, Orta əsrlərə aid karvansaranın, Sasani dövrünə aid müdafiə səddinin və digər tikililərin memarlıq xüsusiyyətlərini, dövrünü müəyyənləşdirmək, bölgənin gələcəkdə mədəni turizm perspektivləri üçün abidələri tədqiq etmək olub.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji irsin tarixi və nəzəriyyəsi şöbəsinin elmi işçisi, "Beşbarmaq" arxeoloji ekspedisiyasının rəisi Sevinc Hüseynova ilkin olaraq Xəzər dənizinin Beşbarmaq dağına doğru olan sahilboyu əraziləri, Qalaşıxı kəndi ərazisi, Beşbarmaq pirinin bilavasitə yerləşdiyi yüksəklik və ona yaxın yüksəkliklər arxeoloji ekspedisiya tərəfindən kəşfiyyat xarakterli tədqiqatlara cəlb edildiyini nəzərə çatdırıb.

Beşbarmaq qala tikililərinin və mənbələrdə adı çəkilən 4 qala bürcündən ikisinin yeri ilkin tədqiqatlar nəticəsində tapılaraq müəyyənləşdirilib. Narınqalanın daxilindəki tikililərin ikisi açılaraq yeri və təyinatı barədə bir sıra elmi nəticələrə nail olunub.

Aparılan araşdırmalar zamanı Orta əsrlərə aid mənbələrdə təsvir edilən 4 qala bürcündən biri və bürcə bitişik qala divarının bir hissəsi qazılaraq tədqiq edilib. 8 metr diametrində olan iri daşlardan qurulmuş Narınqala bürcü və qala divarlarının qalıqları burada qala şəhərin mövcudluğundan xəbər verir.

Tədqiqatlar nəticəsində müəyyən edilib ki, qalanın cənub-şərqində dağılmış tikililərin qalıqları XIX-XX əsrin əvvəllərinə aid yaşayış evlərinin dağıntılarıdır. Yaşayış evlərinin divarlarında sənduqələrdən tikinti materialı kimi geniş şəkildə istifadə olunmasına ilk dəfə burada rast gəlinib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Elm xadimlərimiz**

## Unudulmaz elm və ədəbiyyat fədaisi

**Xalqımızın elm və mədəniyyətinin, ədəbiyyat və incəsənətinin inkişafında, ictimai-siyasi həyatında böyük xidmətləri olmuş şəxsiyyətlərdən biri də Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, ədəbiyyatşünas, tənqidçi, pedaqoq Məmməd Arif Dadaşzadədir.**

Akademik Məmməd Arif Dadaşzadə Azərbaycan ədəbiyyatının və ədəbi dilinin inkişafına çox böyük töhfələr vermişdir. Onun yazdığı dərsliklərin, monoqrafiyaların, ədəbi-bədii əsərlərin gənc nəslin formalaşmasında əvəzsiz rolu vardır. Bu gün Azərbaycan ədəbi dilindən söz düşərkən Məmməd Arif də yada düşür, tez-tez onun əsərlərinə müraciətlər olunur.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü il iyunun 10-da Bakı şəhərində dünyaya göz açıb. 1920-1925-ci illərdə şəhərdəki rus-tatar məktəbində oxuyub. Sonra bir müddət I dərəcəli 5-ci sovet məktəbində müəllim işləyib. 1925-1930-cu illərdə həm də Xalq Maarifi İnstitutunda təhsilini davam etdirib. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil alıb. 1930-1931-ci illərdə Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspirantı olub. 1932-1938-ci illərdə Azərbaycan Maarif Komissarının müavini, eyni zamanda Azərbaycan Pedaqoji İnstitutunun "rus ədəbiyyatı" kafedrasının baş müəllimi, dosenti kimi çalışıb, 1941-1950-ci illərdə həmin kafedranın müdiri təyin edilib. 1938-1939-cu illərdə SSRİ EA Azərbaycan filialının Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, iki dəfə 1939-1950-ci, 1957-1959-cu illərdə direktor, eyni zamanda 1941-1945-ci illərdə "Vətən uğrunda" (indiki "Azərbaycan") jurnalının redaktoru, 1957-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdindəki Terminologiya Komitəsinin sədri vəzifələrində çalışıb.

Anadan olmasının 120 ili tamam olan böyük alım 1954-cü ildə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1955-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, üç il sonra isə həqiqi üzvü seçilib. 1959-cu ildə Azərbaycan EA ictimai elmlər bölməsinin akademik katibi, 1960-cı ildə isə vitse-prezidenti vəzifəsində çalışıb. Ömrünün sonunadək bu vəzifədə işləyib.

Akademik Məmməd Arif Dadaşzadə ədəbi fəaliyyətə 1923-cü ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi felyetonlarla başlayıb. Ötən əsrin 20-30-cu illərində dövri mətbuatda şeir və hekayələrlə çıxış edib. Bu hekayə və şeirləri ilə qısa müddət ərzində oxucu sevgisi qazanıb.

Onun yazdığı əsərlər bir çox xarici dilə tərcümə olunub. Məmməd Arifin 1958-ci ildə "Azərbaycan xalqının ədəbiyyatı" kitabı həm Azərbaycan, həm də rus, bolqar, ingilis, fars və digər dillərə tərcümə edilərək işıq üzü görmüşdür. Böyük alim həm də Azərbaycan ədəbiyyatının yaradıcılarından biri olmuşdu. 50 il yorulmaq bilmədən məktəblilər üçün dərsliklər tərtib etmişdir. Akademikin ədəbi-tənqidi məqalələri, 3 cildlik "Seçilmiş əsərləri" rus dilində, 2 cildlik "Seçilmiş əsərləri", "Sənətkar qocalmır" kitabları maraqla qarşılanmışdır. Başqa əsərləri ilə yanaşı, bu kitabları da elmi, elm və ədəbi ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir.



Böyük işgüzarlıq tələb edən tədqiqat və araşdırmalarla yanaşı, yorulmaz maarif fədaisi, həm də tərcüməçi kimi də fəaliyyət göstərmişdir. Alim 1928-ci ildən başlayaraq 1968-ci ilə qədər 19 adda rus və dünya ədəbiyyatının tükənməz xəzinəsinin dünyaşöhrətli korifeylərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. K.Nikiforovun "Fanar işığında", A.Averbaxın "Proletar ədəbiyyatının hegemoniyası uğrunda", M.Qorkinin "Seçilmiş hekayələr", "Makar Çudra", "Şura ədəbiyyatının vəzifələri", "Don Kixotun ürəyi", Anri Barbosun "Yadlar və dostlar", N.Ostrovskinin "Polad necə bərkidi" (iki dəfə 1936-1947), M.Armgenin "89 nömrəli skaut", L.N.Tolstoyun "Hərb və Sülh" 1-ci cild və 4-cü hissə, A.Kojevnikovanın "Dirilik suyu", Makarenkonun "Pedaqoji poema ", L.Vaysenberqin "Kiçik bacı" və başqa əsərlərini dilimizə çevirmişdir.

M.Arifin yüksək elmi-nəzəri fəaliyyəti, problematika aktuallığına diqqət və məsuliyyəti Azərbaycan ədəbiyyatşünaslığını və tənqidini keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Ədəbiyyatımızın müxtəlif mərhələlərini tədqiq edib sistemli şəkildə öyrənən, ədəbi əlaqələr sahəsində böyük xidmətlər göstərən, mühüm nəzəri və metodoloji problemlərin elmi həllini verən, tənqidin nəzəri əsaslarını hazırlayan Məmməd Arif mütəfəkkir alim və nəzəriyyəçi olmuşdur. O, 1944-cü ildə ilk dəfə olaraq hazırda da bədii dəyərini qoruyub saxlayan "Azərbaycan sovet ədəbiyyatı tarixi"ni yazmışdır.

Ömrünün müxtəlif illərində bir-birindən dəyərli əsərlər yazan Məmməd Arif həm də görkəmli ictimai və dövlət xadimi idi. O, uzun müddət SSRİ-İran Cəmiyyəti sədrinin müavini olmuş, 2 dəfə Bakı Sovetinə deputat seçilmişdir. Akademik 1963-1967-ci illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı və sədri olmuşdur. İki dəfə "Qırmızı əmək bayrağı", "Lenin", "Oktyabr inqilabı" ordenləri, "Qabaqcıl maarif xadimi" nişanı və medallarla təltif edilmişdir. Məmməd Arif 1975-ci il dekabrın 27-də 71 yaşında Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Xalq artisti Məlik Dadaşovun məzarı ziyarət olunub



**Xalq artisti Məlik Dadaşovun anadan olmasının 100-cü ildönümü tamam olur. Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvlərinin iştirakı ilə İkinci Fəxri xiyabanda Xalq artistinin məzarı ziyarət olunub.**

Anım mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov deyib ki, Azərbaycan aktyor məktəbinin orta nəslinə mənsub olan Məlik Dadaşov teatrda onlarca obraza səhnə həyatı verib, elə kinoda da yaddaqalan, maraqlı rollar yaradıb. O, təkcə Azərbaycanda deyil, bütün dünyada xalqımızı təmsil edən nadir sənətkarlardan olub. Yüksək intellektə, mədəniyyətə malik, aktyor sənətinin yüksək texnikasına yiyələnmiş bu sənətkar bir-birindən maraqlı, bənzərsiz rollar yaradıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev qeyd edib ki, görkəmli aktyor Məlik Dadaşov "Birisi gün, gecəyarısı", "O dünyadan salam", "Fəryad", "Hacı Qara" kimi filmlərdə yaddaqalan və maraqlı obrazlara ekran həyatı verib. O həm komediyalar, həm dramatik və faciə xarakterli obrazlar, həm də lirik-psixoloji rollarda böyük fərqli obrazlar yaratmaqla tamaşaçıların yaddaşında silinməz izlər qoyub.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Ədalət Hacıyev Məlik Dadaşovun Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri olduğunu bildiriblər. "Aktyor ömrünün son illərində S.Vurğun adına Rus Dram Teatrında çalışıb. Bu teatrda direktor kimi çalışdığı dövrdə teatrın repertuarı xeyli zənginləşib, buraya yeni yaradıcı qüvvələr cəlb olunub. 1980-ci illərdən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs də deyib", - deyə o, əlavə edib.

Sonda Xalq artisti Brilliant Dadaşova mərhum sənətkarın ailəsi adından hər kəsə öz təşəkkürünü bildirib.

**Təbiətimiz**

## Çuxur Qəbələdə "yaşıl turizm"in yüksəlişi

### Lavanda plantasiyalarının xoş ətri təkcə özümüzü deyil, xarici qonaqları da cazibəsində saxlayır

**"Azərbaycanda, xüsusən də Qəbələdə bir neçə dəfə olmuşam. Məni bu bölgəyə çəkən ölkənizin təbii gözəllikləri, xüsusən də füsunkar və faydalı lavanda tarlalarıdır. Modellik fəaliyyəti ilə məşğulluğuma, dəb nümayiş etdirdiyimə görə həm fotosessiyam üçün münasib məkan axtarışındayam, həm də lavandadan hazırlanan müxtəlif kosmetik vasitələrdən, dəri üçün yağlardan alıb aparıram".**

Qəbələ rayonunun Çuxur Qəbələ kəndi ərazisində yerləşən lavanda sahəsində rastlaşdığımız 19 yaşlı rusiyalı xanım Angelina Romanova belə deyir. Digər həmsöhbətimiz, ixiyar yaşlı pakistanlı Əhməd Şərafəddin də həmin möcüzəvi bitki tərkibli dərmanları fiziki və zehni yorğunluğu aradan qaldırmaq, stresdən uzaqlaşmaq üçün əla vasitə sayır. Səudiyyə Ərəbistanından gəlmiş turist Mohamməd Tahanı isə sadəcə səs-küydən uzaq məkanda, yaşıllıqlar qoynunda istirahət və ov maraqlandırır.

Ölkəmizdə inkişaf etdirilən turizmin bir təmayülü də kənd turizmidir. İndi bu sahəyə diqqət artıb. "Yaşıl turizm"lə yanaşı, orta və kiçik sahibkarlıq da tərəqqidədir, bölgə əhalisi iş yerləri tapır, kənd təsərrüfatından, tarlalardakı fəaliyyətdən tutmuş evlərin kirayəsinə, bələdçiliyə, xırda ticarətə qədər pul qazanırlar. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub, azadlığa qovuşmuş Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Noyabrda Bakıda keçiriləcək COP29 beynəlxalq konfransına ciddi hazırlıq görülür. Məmləkətimizə 80 mindən artıq əcnəbinin, özü də ekologiya üzrə mütəxəssislərin üz tutacağını nəzərə alsaq, turizmin inkişafı prioritet kimi nəzərdə tutulur.

Lavanda çox qədim, ətirli, insan orqanizminə xeyirli çoxillik ədviyyat bitkisidir, vətəni Aralıq dənizi sahilləri hesab olunur. Araşdırmalar təsdiqləyir ki, hələ qədim Misirdə mumiyalanma zamanı istifadə olunub, 1922-ci il tədqiqatları zamanı izlərinə firon Tutanxamonun sarkofaqında rast gəlinib. Dünyanın bir çox yerində müxtəlif məqsədlərlə yetişdirilir: dekorativ bitki və ya mətbəx ədviyyatı kimi, narahatlığı aradan qaldıran, infeksiyalar, yanıqlar, yaralar, ağrılar, saç tökülməsi problemlərinə qarşı müalicəvi vasitələrin hazırlanmasında istifadə olunan efir yağlarını əldə etmək üçün və sair. Bundan başqa, lavanda yalnız faydalı tibbi-kosmetik xüsusiyyətlərinə deyil, həm də çiçəklərinin gözəlliyinə və incə ətrinə görə də yüksək dəyərləndirilir. Onun nektarından alınan bal çox vtaminli və qiymətlidir. Azərbaycanın Çuxur Qəbələsinə isə lavanda 2019-cu ildə gətirilib, 30 hektarlıq sahədə salınıb, beş ildir aqrotexniki üsullarla becərilir.



Bəli, ölkəmizin qonaqları Qəbələnin şimal-şərqində, Qafqaz dağlarının ətəyində yerləşən "Essenso" plantasiyalarının heyranıdır. Lavanda bitkisi çoxsaylı tarixi abidələrin məkanı qədim Çuxur Qəbələnin mənzərəsinə və havasına bir başqa görüntü və qoxu qatır. Bənövşəyi tarlalara heyran qalmaq, havadakı ecazkar ətri hiss etmək, yetişdirilməsi haqqında maraqlı məlumat almaq və aromatik yağlardan tutmuş lavanda balına qədər bir sıra dərman məhsullarını sınamaq üçün "Essenso" plantasiyasına baş çəkmək olar. Səfər, ekskursiya üçün ən yaxşı vaxt isə indi tarlaların tam çiçəklənmə dövrü - mayın sonundan iyunun axırına qədər olan müddətdir.

Hər il həmin aylarda burada ABŞ, Türkiyə, Fransa, İtaliya və Bolqarıstandakı tədbirlərə bənzər Lavanda Festivalı keçirilir. Festivalın qonaqları lavandanın müxtəlif sortlarının yetişdirilməsi və istifadəsinin sirlərini öyrənmək, gül ləçəklərindən ətirli, dadlı və sağlam qidaları dadmaq, məhsulları sınamaq, konsertlər, moda nümayişləri və digər maraqlı tədbirlərə qatılmaq şansı qazanırlar.

*Qurban MƏMMƏDOV*

## UNESCO-nun mənzil-qərargahında Mövlana Cəlaləddin Rumiyə həsr edilmiş sərgi açılıb

**UNESCO-nun mənzil-qərargahında Şərqin dahi mütəfəkkiri, qardaşlığı bütün insanlara tövsiyə edən və buna görə də bütün dinlər və millətlər tərəfindən təqdir edilən böyük şəxsiyyət Mövlana Cəlaləddin Ruminin anadan olmasının 815 illiyi münasibətilə sərgi açılıb.**



Sərgidə XIII əsrdən dünyaya tolerantlıq dərsi verən Ruminin müxtəlif dillərə tərcümə olunmuş kitabları, miniatür sənət əsərləri nümayiş olunur. Cəlaləddin Ruminin müxtəlif dillərdə böyük afişalarda yazılmış müdrik kəlamları, şeirlərindən parçalar ziyarətçilərin diqqətini daha çox cəlb edir. Dövrümüzdə böyük əhəmiyyət daşıyan mədəniyyətlərarası dialoqun düsturunu yazmış Mövlana Cəlaləddin Ruminin bu sahədə təlimlərindən çox şey öyrənilməlidir.

Şərq islam dünyasının görkəmli klassikinin təxminən 26 min beytdən ibarət olan "Mənəviyyat məsnəviləri" və "Məsnəviye-Şərif" adlandırılan qiymətli didaktik xarakterli hikmət xəzinəsi olan poemasının əlyazması 6 dəftərdən ibarətdir. Dünya ədəbiyyatının incisi sayılan bu əsərdə sufiliklə bağlı elmi və əxlaqi fikirlər kiçik, lakin yaddaqalan ibrətamiz əhvalatlar şəklində təqdim olunur.

## Uilyam Folknerin "Seçilmiş əsərləri" kitabı nəşr edilib

**Dövlət Tərcümə Mərkəzi 150 cildlik "Dünya ədəbiyyatı inciləri" seriyasından növbəti nəşri - dünyaşöhrətli Amerika yazıçısı, Nobel mükafatı laureatı Uilyam Folknerin "Seçilmiş əsərləri" kitabını ərsəyə gətirib.**

Tərcümə Mərkəzindən bildirilib ki, yazıçının məşhur "Səs-küy və hiddət" romanına yazılan "Səs-küy və hiddət romanı haqqında" məqalə ilə başlayan kitaba ədibin Nobel nitqi, "Qırmızı yarpaqlar", "Yanğın", "O gün şər qarışanda", "Yağmursuz sentyabr", "Emili üçün qızılgül", "Saçlar", "Qısqanclıq" hekayələri, "Səs-küy və hiddət" romanı ilə yanaşı, tanınmış tərcüməçi Tehran Vəliyevin Folkner yaradıcılığı haqqında qələmə aldığı "Uilyam Folkner və onun Yoknapatofa saqası" essesi də daxil edilib.

Əsərlərin Azərbaycan dilinə tərcümə müəllifləri tanınmış bədii tərcümə ustaları Natiq Səfərov, Nəriman Əbdürrəhmanlı, Mahir N.Qarayev və Etimad Başkeçiddir.




# Unikal göydələnlər inşa ediləcək

**Dünyanın Dubayda yerləşən ən hündür binası "Burj Khalifa"nı dizayn edən "Skidmore Owings & Merill" şirkəti unikal xüsusiyyətlərə sahib daha hündür bir tikilinin mümkün olub-olmadığını araşdırmaq üçün "Energy Vault" şirkəti ilə əməkdaşlığa başlayıb.**



İki şirkət bir kilometr hündürlüyündə və eyni zamanda nəhəng cazibə qüvvəsi batareyası kimi fəaliyyət göstərən göydələn tikməyi planlaşdırır. Təklifdə diqqətəlayiq iki ideya yer alır. Bunlardan birincisi, günəş enerjisi kimi bərpaolunan mənbələrdən və ya standart elektrik şəbəkəsindən artıq enerji istifadə edərək, çox hündür bir göydələnin zirvəsinə çəki qaldırmaqdır. Bu zaman elektrik enerjisi tələb olunduqda ağırlığın sərbəst buraxılması və elektrik enerjisi istehsal etmək üçün generatorun işə salınması planlaşdırılır. Hündür binalar "Evu" adlanan GESS (qravitasiya enerjisinin saxlanması sistemi) ilə batareya kimi də xidmət edə bilər, burada enerji 300 metrdən 1000 metrə qədər uzunluqdakı içi oyulmuş struktura malik qüllələr vasitəsilə saxlanılır. Buna görə ikinci ideya kimi cazibə sisteminə əlavə olaraq komanda "Evc" sistemini də təklif edir. O, "Evu" sisteminə oxşar məntiqlə işləyir, lakin böyük beton bloklar əvəzinə sudan istifadə olunur. Göydələnin zirvəsinə vurulan və su anbarında saxlanılan su elektrik enerjisi lazım olduqda aşağı buraxılır və turbinlər vasitəsilə elektrik enerjisi istehsal etmək üçün istifadə olunur. Bu sistem hazırda nasoslu su-elektrik stansiyalarında istifadə olunur.

Hər iki ideya cəlbedici olsa da, onları həyata keçirməkdə müəyyən çətinliklər var. Bu, ağırlıqları dəstəkləmək üçün əlavə tikinti xərcləri, sistemin səmərəliliyi və ən əsası göydələnin tikintisinin iqtisadi cəhətdən problemli olmasıdır.

## Cihazlar bir dəqiqəyə şarj olunacaq

**Kolorado Universitetinin mütəxəssisləri cihazların bir dəqiqə ərzində tam enerji ilə doldurulmasını təmin edəcək yeni texnologiya hazırlayıblar.**



Yeni üsul ionların superkondensatorlar vasitəsilə daha səmərəli hərəkətinə əsaslanır. İonlar müsbət yüklü atomlardır. Superkapasitorlar isə qısamüddətli yük və boşalma dövrlərində enerji saxlamaq üçün istifadə olunur.

Mütəxəssis Ankur Gupta enerjinin saxlanması və buraxılması proseslərinin ionların hərəkətini daha səmərəli etməklə sürətləndirilə biləcəyini söyləyib: "Planetin gələcəyində enerjinin rolu çox vacibdir və mən kimya mühəndisliyi biliklərimi enerji saxlama cihazlarını inkişaf etdirmək üçün istifadə etmək qərarına gəldim. Bunun sayəsində telefonların şarj problemi tamamilə aradan qalxmış olacaq".

Tədqiqat həmçinin nanoskopik məsamələrdə ionların hərəkətinin gözləniləndən fərqli olduğunu və bu fərqin enerji saxlama sistemlərinin səmərəliliyini artıra biləcəyini ortaya çıxarıb. Telefonlarda enerji doldurma problemləri istifadəçilərin əsas şikayətləri arasında yer alır.

## Plastik tullantıları parçalayan dəniz göbələyi

**Plastik tullantılar dünyada ekologiyanın ciddi problemlərindəndir. İnsan orqanizmindən tutmuş içməli suyun tərkibinə kimi müxtəlif yerlərdə mikroplastik hissəciklərə rast gəlinir.**



Alimlər plastik tullantıları yeyən yeni dəniz göbələyi növünü kəşf ediblər. "Parengyodontium album" adlı göbələk növü Sakit okeanın şimal hissəsində olan plastik tullantıların daxilində və ətrafında yaşayan mikroblardan təşkil edilmiş nazik layın arasında aşkar olunub. Tədqiqatçılar bildiriblər ki, bu, plastik tullantıları udmağa və parçalamağa qadir dəniz göbələyidir. "Parengyodontium album"u analiz edən mütəxəssislər belə qənaətə gəliblər ki, o, polietileni spesifik şəkildə parçalamaq qabiliyyətinə malikdir.

Amma bu göbələk plastik tullantı kimi ciddi problemin tam həll yolu deyil. Belə ki, laboratoriya şəraitində yetişdirilmiş göbələk ultrabənövşəyi şüalanmanın təsirinə məruz qalmış plastik materialı gündə 0,05 faiz sürətlə parçalaya bilir. Böyükhəcmli plastik tullantıların öhdəsindən gəlmək üçün bu cür göbələyə həddindən artıq zaman lazım olacaq. Alimlər düşünürlər ki, Yer kürəsində plastik tullantıları məhv edə biləcək daha böyük orqanizmlər ola bilər. Sadəcə olaraq onları tapmaq lazımdır.

## Dəmir qədər möhkəm plastik kərpic

**"Plaex" şirkəti plastik tullantılardan istifadə edərək qırılmaz plastik kərpic istehsal edib. Bu kərpiclər hətta buldozerin gücünə belə tab gətirir.**



Tikinti sənayesində istifadə olunan plastik kərpiclərin sadə dizaynı sayəsində montaj zamanı alət tələb olunmur. Təxminən 2,3 kq çəkisi olan plastik kərpiclər standart kərpiclərdən 3 dəfə möhkəmdir.

"Plaex"ə görə, tikinti sənayesində istifadə ediləcək plastik kərpiclər mənzil tikərkən tullantıları da azaldır.

## Yaşlılara nəzarət edən "ağıllı cihaz"

**"Huawei" şirkəti evdə yaşlı insanları izləyən və yıxılma halında xəbərdarlıq göndərən süni intellekt dəstəkli sağlamlıq sensorunu təqdim edib. Qurğu insanı izləmək üçün millimetr dalğalı radar texnologiyasından istifadə edir.**

Vanna və yataq otağında quraşdırılan cihaz təhlükə anında əvvəlcədən müəyyən edilmiş nömrələrə zəng və mesaj vasitəsilə xəbərdarlıq göndərir. İstifadəçilər həmçinin yuxu planları qura və yaşlı insan uzun müddət yatarsa və ya tez oyanarsa, bu barədə xəbərdarlıq alırlar. Sensor nəfəs alma kimi incə hərəkətlər zamanı belə insanın varlığını dəqiq müəyyən etməyə imkan verən mikro hərəkət aşkarlama xüsusiyyətinə malikdir.

"Huawei" sensorun köməkçi aşkarlama cihazı kimi nəzərdə tutulduğunu və tam təhlükəsizliyə zəmanət verilmədiyini bildirib. Cihaz 25 kvadratmetr ərazini aşkar edə və yalnız bir nəfəri izləyə bilir. Şirkət ev heyvanları olan evlərdə bu sensordan istifadə etməməyi tövsiyə edir. Çünki ev heyvanlarının hərəkəti yanlış həyəcan siqnallarına səbəb ola bilər.

## Taxta qanadlı ilk külək turbini

Almaniyanın "Voodin Blade Technology" şirkəti dünyada ilk taxta qanadlı külək turbinini istehsal etdiyini açıqlayıb. Külək turbini üçün istifadə edilən sintetik materiallar tam tullantılardan ibarətdir. Məlumata görə, bu materiallar təkrar emala yararlı deyil.

Taxta qanadlı külək turbini təkcə ekoloji cəhətdən təmiz deyil, həm də kifayət qədər davamlıdır. Onun bıçaqları "fiberglass" turbinlərdən daha uzun ömürlüdür və dəniz şəraitində yaxşı nəticə göstərə bilir. Ağac əsaslı turbinlərin digər üstünlüyü onların istehsalı və daşınması xərclərinin aşağı olmasındadır. Yerli istehsal imkanları və proseslərin avtomatlaşdırılması sayəsində isə xərclər daha da ucuzlaşır.

## Qatlanan smartfonlar bazarının lideri

**"Samsung" uzun müddətdir qatlanan smartfonlar bazarının lideri idi. Lakin şirkət artıq bu statusu daşımır. 2023-cü ilin birinci rübünə olan statistikaya əsasən, o, sözügedən bazarın 59 faiz payına sahib idi. İkinci yerdə isə 14 faizlik pay göstəricisi ilə "Huawei" şirkəti qərarlaşırdı.**

Yeni statistik məlumatlara əsasən, "Samsung"un qatlanan smartfonlar bazarındakı pay göstəricisi 23 faizə düşüb. "Huawei"n payı 35 faizə qalxıb. Bu statistik göstəricilər eyni zamanda istifadəçilərin qatlana bilən smartfonlara maraqlarının 50 faiz yüksəldiyini sərgiləyir.

Qatlana bilən smartfonlar bazarındakı statistik göstəricilərini daha iki şirkət yaxşılaşdırıb. Söhbət "Motorola" və "Honor" şirkətlərindən gedir. Belə ki, "Motorola" bazarın 11 , "Honor" isə 12 faiz payına sahibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan Prezidenti İlham Əliyev Misirə rəsmi səfərə gedib
Yaşıl Qarabağ
İlham Əliyev işğaldan azad olunmuş əraziləri təmiz ekoloji məkan kimi qurur
Azərbaycan türk birliyinin mərkəzinə çevrilib
Dövlət büdcəsi 40 milyard manata yaxınlaşır
Türk dünyası tarix səhnəsinə güclənən birlik kimi qayıdır
Hayastan yeni reallıqlarla barışmalıdır
BAKU ENERGY WEEK
Azərbaycanın yüksək qlobal nüfuzunun təsdiqi
COP29-a Azərbaycanın ünvan seçilməsi təsadüfi deyil
Dünya birliyi Ermənistanın mina terroruna adekvat cavab verməlidir
Ermənistan mina xəritələrini təhvil verməməklə beynəlxalq hüququ tapdalayır
Bakı Enerji Həftəsi Azərbaycana yeni dividendlər qazandıracaq
"Yaşıl enerji" ölkəmizə böyük uğurlar gətirəcək
Sakitliyi kombaynların səsi pozur
Avropa Parlamentinə seçkilərdə Makronun məğlubiyyəti qaçılmazdır
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# İldırımdan necə qorunmalı?

**Buludlararası və buludlarla yer səthi arasında elektrik boşalmaları nəticəsində baş verən ildırım şimşək və göy gurultusu ilə müşayiət olunur. Uzunluğu bəzən bir neçə kilometrə çatan ildırım zamanı saniyədə 100 min kilometr sürətlə hərəkət edən 200 milyon volta yaxın elektrik cərəyanı meydana gəlir.**



Bu təbiət hadisəsini minimum fəsadlarla ötüşdürmək üçün bir sıra təhlükəsizlik tədbirləri görülməlidir. İldırım adətən ən hündür obyekti vurduğu üçün şimşək çaxanda insan ətrafdakı obyektlərdən hündür olmasın deyə mütləq yerə uzanmalıdır. Ağac altında da daldalanmaq olmaz. Ağaclar hündür olduğuna görə ildırım elə birinci onları vura bilər.

İldırım zamanı ən təhlükəsiz yer qapalı məkanlar olduğu üçün mənzilləri tərk etməmək məsləhət görülür. Qapı və pəncərələr bağlanmalı, elektrik cihaz və avadanlıqları cərəyan mənbəyindən ayrılmalıdır. Bu müddət ərzində duş qəbul etmək, qab-qacaq və paltar yumaq tövsiyə edilmir. Çünki su yaxşı elektrik keçiricisidir. Belə təhlükə yaranan zaman avtomobildə olduqda mühərriki söndürüb, pəncərələrin şüşələrini qaldırmaq, blutuzlu qulaqcığı və mobil telefonu söndürmək, maşının metal hissələrinə toxunmamaq məsləhət görülür.

Bəzi əlamətlərdən ildırımvurma riskinin olduğunu anlamaq mümkündür. Mütəxəssislərin fikrincə, açıq sahədə şiddətli şimşək və yağış altında saçların qalxdığı hiss edilirsə, bu ildırım düşmə riskinin olması deməkdir. Belə hallarda "embrion vəziyyəti" alaraq ayaqlar birləşmiş vəziyyətdə dərhal diz üstə yerə çökülməsi, əllərin dizlərin üstünə qoyulması və önə doğru əyilmək tövsiyə olunur. Yağışlı havada və ya göy guruldayanda küçədə olarkən ildırımdan qorunmaq üçün bayraq, telefon, işıq və buna bənzər digər metal dirəklərdən də uzaqda dayanmalıyıq.

Şimşəkli-ildırımlı havada yaş paltar və ayaqqabı ilə gəzmək olmaz. Bu, ildırımvurma təhlükəsini artırır. Açıq ərazilərdə çadır qurmaq, çətir açmaq olmaz, çünki çətirin üst hissəsindəki metal çubuq ildırım zamanı çox təhlükəlidir. Traktor, kombayn, otbiçən maşın, motosiklet, velosiped və bu kimi vasitələrdən aralı dayanılmalıdır. Belə situasiyalarda insanlar toplu halda dayanmamalı, aralarında ən azı 1,5 metr məsafə saxlamalıdırlar.

İldırımvurma zamanı orqanizmə qısa müddət ərzində çox yüksəkgərginlikli - milyon voltlarla atmosfer elektriki təsir edir ki, bu zaman insan bədənində patoloji dəyişikliklər baş verir. Bu vaxt mərkəzi sinir sisteminin zədələnməsi əlamətləri, görmə və eşitmə qabiliyyətinin pozulması, dəridə ağac budağını xatırladan tünd göy rəngli ləkələrin əmələ gəlməsi müşahidə edilir. Travmadan dərhal sonra bir neçə dəqiqədən tutmuş sutkaya qədər huş itir, hərəki narahatlıq, qıcolmalar, ardınca amneziya, sayıqlama, görmə və eşitmə halüsinasiyaları meydana çıxır. Ağır hallarda karlıq, lallıq və görmənin ağır dərəcəli pozğunluqları olur.

İldırımvurma zamanı ölümün əsas səbəbi ürək qan-damar sisteminin və tənəffüs mərkəzinin fəaliyyətinin dayanmasıdır. Ürək və tənəffüs fəaliyyəti pozulduğu üçün tibbi yardım gələnə qədər ilk növbədə zərərçəkmişə ürək masajı edilməli, süni tənəffüs verilməlidir. İldırım vurmuş adamı torpağa basdırmaq olmaz. Belə ki, bu zaman torpaq döş qəfəsini sıxmaqla tənəffüsün keçirilməsini pozur, orqanizmi soyudur və qan dövranını çətinləşdirir. Bu kimi hallarla rastlaşanlar həkimlərin məsləhətlərinə riayət etməlidirlər.

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

# Gecə və səhər Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli az yağış yağacağı gözlənilir

Azərbaycanda iyunun 9-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 28-33° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Axşam yağıntı tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-22°, gündüz 30-35° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20° isti, gündüz 27-32° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarının əksər ərazilərində hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 15-20°, bəzi yerlərdə 25-27° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 17-22° isti, bəzi yerlərdə 25-28° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-21°, gündüz 24-29° isti olacaq.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 22-27° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi qərb rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-22°, gündüz 30-35° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-20°, gündüz 25-30° isti, dağlarda gecə 15-17°, gündüz 23-28° isti olacağı gözlənilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4412
Sifariş 1227

Qiyməti 60 qəpik